25 avqust 2021 №63 (1840) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## UNESCO-nun Qarabağa gəlişini otuz ilə yaxındır gözləyirik

### "Biz onları çağıranda gəlmirdilər. Müharibədən sonra isə gəlməyə qərar verdilər. Amma indi Ermənistan yenə etiraz edir"

Azərbaycan həmişə BMT-nin fəal üzvü olmuşdur. Biz təqribən on il bundan əvvəl beynəlxalq birliyin böyük dəstəyi ilə hətta Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdik. 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir və bu da Azərbaycanın beynəlxalq nüfuzunu və fəal xarici siyasətini nümayiş etdirirdi. İndi isə BMT-dən sonra ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının sədri kimi biz beynəlxalq münasibətlər sistemində mühüm rol oynayırıq və BMT Baş katibinin təşəbbüslərinə dəstək oluruq, xüsusilə COVİD ilə mübarizə sahəsində.



Prezident İlham Əliyev bu sözləri avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Vladanka Andreyevanı qəbul edərkən deyib.

Azərbaycanın pandemiya ilə mübarizə çərçivəsində 30-dan çox ölkəyə yardım göstərdiyini diqqətə çatdıran İlham Əliyev bildirib ki, bu, bizim beynəlxalq birliyin məsul üzvü kimi gündəliyimizi nümayiş etdirir.

Dövlət başçısı qeyd edib ki, BMT ilə bizim fəal qarşılıqlı əlaqəmiz Ermənistanın ölkəmizə təcavüzü nəticəsində başlayıb və 1993-cü ildə Təhlükəsizlik Şurasının bununla bağlı dörd qətnaməsi qəbul olunub: "Bu, çox müsbət addım idi, erməni təcavüzünə toxunularaq bizə dəstəyin çox ümidverici bir jesti idi. Bizim beynəlxalq səviyyədə tanınan ərazilərimizdən erməni qoşunlarının dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi Təhlükəsizlik Şurasının çox mühüm siyasi bir jesti idi. Lakin, əfsuslar olsun ki, bu qətnamələr icra olunmamışdır və yəqin sizin də bildiyiniz kimi, Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin olmaması məsələsini mən şəxsən dəfələrlə qaldırmışam. Bəzi hallarda qətnamələr qısa müddət ərzində icra olunur, lakin bizə gəldikdə onlar beynəlxalq iştirakçılar tərəfindən ümumiyyətlə icra olunmamışdır".

Prezident daha sonra deyib: "Xüsusilə bizi narahat edən və Azərbaycan cəmiyyətinin anlamaqda çətinlik çəkdiyi məsələ o idi ki, bu qətnamələri qəbul edənlər, Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkədən üçü ATƏT-in Minsk qrupuna həmsədr olan və hələ də həmsədrlik edən ölkələrdir. Onlar özləri bu qətnamələri qəbul etmişdir. Bu qətnamələrin həyata keçirilməsinə imkan yaratmaq üçün onların mandatı var idi. Lakin, əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu çox imkanları əldən verib. Bir çox hallarda mən Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi məsələsini qaldırmışdım. Çünki düşünürdüm ki, bu, toqquşmanın, müharibənin qarşısının alınması üçün bir yol ola bilərdi. Biz məsələni sülh yolu ilə həll etmək istəyirdik".

davamı səh. 2-də

## Prezident Belçikanın yeni səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mişel Pitermansın etimadnaməsini qəbul edib.

Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyevin Belçika Krallığına səfərləri və Belçikalıların Kralı Əlahəzrət Filiplə görüşləri xatırlanaraq, bu görüşlərdə ölkələrimiz arasında əməkdaşlığa dair çox səmərəli müzakirələrin aparıldığı bildirilib.

Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında əlaqələrin genişləndirilməsinin önəmi, əməkdaşlığın konkret sahələrinin müəyyənləşdirilməsi, o cümlədən ticarət dövriyyəsinin artırılması istiqamətində praktiki addımların atılmasının vacibliyi qeyd edilib.

Səfir Mişel Pitermansın ölkəmizdə diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə ümidvarlıq ifadə olunub.

## Folklor nümunələri dövlət qeydiyyatına necə alınacaq?

Azərbaycan folkloru nümunələrinin və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınmasında dəyişikliklər edilib. Bununla bağlı yeniliklər Nazirlər Kabinetinin 20 avqust 2021-ci il tarixli 233 nömrəli Qərarı ilə təsdiqlənən "Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması Qaydası"nda əksini tapıb.

Baş nazir Əli Əsədov tərəfindən imzalanan qərar ilə, həmçinin "Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması barədə Şəhadətnamənin nümunəsi" təsdiq edilib.

səh. 5

## Hacı Zeynalabdin Tağıyevin Bakıda heykəli ucaldılır

Hacı Zeynalabdin Tağıyevin heykəli avqustun 25-də quraşdırılacaq. Bu barədə heykəlin müəllifi, Xalq rəssamı Xanlar Əhmədov məlumat verib.

Heykəltəraş bildirib ki, abidənin ucaldılacağı ərazidə işlər yekunlaşıb, postament hazırdır.

Qeyd edək ki, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı 2019-cu ildə açıq heykəltəraşlıq müsabiqəsi keçirib. Müsabiqəyə təqdim olunan 26 əsərdən Xalq rəssamı Xanlar Əhmədovun işi qalib olub.

Böyük mesenatın heykəli Bakı Metropoliteninin "İçərişəhər" stansiyasının qarşısında ucaldılacaq.

## Dünyanı fəth edən ecazkar sənət

Ana laylası ilə canımıza hopmuş, yaddaşımızda əbədiləşmiş Azərbaycan muğamı həm də dünya musiqi xəzinəsinin incisidir. Görkəmli xanəndələrimizin ifasında bu musiqi dilindən, milliyyətindən asılı olmayaraq dinləyicini ilahi başlanğıc, əbədi olum-ölüm həqiqətləri barədə düşünməyə sövq edir, ona məhəbbət, sevinc, kədər hisslərini yaşadır.

Azərbaycan xalqının qədim irsi olan muğam tarixən enişli-yoxuşlu yollardan keçsə də, xalqımız onu qoruyaraq, inkişaf etdirərək nəsildən-nəslə ötürüb. Müstəqil Azərbaycanda isə milli muğam ifaçılığı yeni inkişaf mərhələsinə qədəm qoyaraq dünyanı fəth edib.

Azərbaycan muğamının müasir tarixində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İCESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən silsilə tədbirlər müstəsna rol oynayır. Bu fəaliyyətin nəticəsidir ki, son illər muğam ifaçılığı, sözün əsl mənasında, intibah dövrünü yaşayır.

Muğam Azərbaycanın zəngin qeyri-maddi mədəni irsinin UNESCO tərəfindən bəşəriyyətin sənət inciləri xəzinəsinə daxil edilmiş ilk nümunəsidir. Üstəlik, muğamla bağlı UNESCO səviyyəsində iki dəfə (2003, 2008) belə mötəbər qərar qəbul edilib.

Ölkəmizdən min kilometrlərlə uzaqda – Kanadada isə 2010-cu ildə 26 avqust – "Azərbaycan muğamı və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü" təsis edilib. Niaqara Şəhər Meriyası və Niaqara Musiqisi Festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir.

2020-ci ildə əldə etdiyimiz tarixi Zəfər, 44 günlük Vətən müharibəsində şanlı qələbiyyət bizi otuz il həsrətində olduğumuz muğam yurdumuz Qarabağa, mədəniyyətimizin paytaxtı Şuşaya qaytardı. Bu qayıdış çoxəsrlik tarixi olan Azərbaycan muğamının da yeni bir intibahıdır, milli musiqimizin əbədi baharıdır. 2021-ci ilin 12-13 may tarixlərində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşanın əsrarəngiz düzündə keçirilən "Xarıbülbül" Musiqi Festivalı mədəniyyətimizin paytaxtına qayıdışımızın möhtəşəm nümayişini bütün dünyaya göstərdi.

davamı səh. 3-də

## "Doğma torpaq" filminin ikinci hissəsinin çəkilişlərinə hazırlıq gedir

"Narimanfilm" studiyası "Doğma torpaq" bədii filminin ikinci hissəsinin çəkilişləri üçün hazırlıq dövrünə başlayıb.

Tarixi mövzulu film azərbaycanlıların Ermənistandakı tarixi yurdlarından qovulması, Xocalı soyqırımı və işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsindən bəhs edir.

səh. 2

## Malazgird Zəfərinin 950 illiyi qeyd olunur

Türkiyənin Malazgird (Muş) və Ahlat (Bitlis) rayonlarında (ilçələrində) Malazgird Zəfərinin (1071) 950-ci ildönümü münasibətilə tentənəli tədbirlər keçirilir.

Tədbirlərə avqustun 23-də Bitlis vilayətinin Ahlat rayonunun Çarho bölgəsində, hökumətin qərarı ilə "1071 Malazgird Meydan Müharibəsi Tarixi Milli Parkı" elan edilən ərazidə start verilib. Milli park elan edilən 150 min kvadratmetr ərazidə "1071 Sultan Alp Arslan otağı" və 50 çadır qurulub. Burada Azərbaycan mədəniyyətini tanıtma çadırı da ziyarətçiləri qəbul edir.

Tədbir "Mehtər marşı"nın ifası ilə başlayıb. Sonra çadırlara və digər bölmələrə baxış olub.

Azərbaycanın Türkiyədəki Səfirliyi və ölkəmizin Qars şəhərindəki Baş konsulluğunun dəstəyi ilə qurulan çadır iki ölkənin bayraqları ilə bəzədilib. Monitorda Azərbaycanın tarixi, mədəniyyəti, Qarabağ Zəfəri, eləcə də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birlikdə Şuşaya səfərini əks etdirən kadrlar nümayiş olunur.



davamı səh. 8-də



## "Bu, həqiqətən də, möcüzədir"

Azərbaycan əsilli məşhur fotojurnalist Rza Diqqəti (Reza Deqati) Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə bağlı çəkdiyi fotoları "İnstagram" səhifəsində paylaşıb.

Füzuli Beynəlxalq Hava Limanının təməli 2021-ci il yanvarın 14-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Hava limanının 3 min metr uzunluğunda uçuş-enmə zolağı ən iri təyyarələri belə qəbul edə biləcək.

səh. 8

## Beynəlxalq Ordu Oyunlarında "Mədəniyyət Ordusu" müsabiqəsi

Avqustun 23-də Moskva vilayətinin Kubinka qəsəbəsində Azərbaycanın da iştirak etdiyi "Armiya-2021" Beynəlxalq Hərbi-Texniki Forumu və "ARMİ-2021" 7-ci Beynəlxalq Ordu Oyunlarının təntənəli açılışı olub.

Ölkəmiz poliqondakı "Dostluq Evi"ndə keçirilən "Mədəniyyət Ordusu" müsabiqəsində də təmsil olunur. Burada Azərbaycanın hərb, dövlətçilik tarixi və mədəniyyətini əks etdirən stend açılıb.

"Mədəniyyət Ordusu" yaradıcılıq müsabiqəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının kollektivi iştirak edib.

səh. 3

## Nəvvabın rənglər dünyası

Mir Möhsün Nəvvabın (1833–1918) milli klassik bədii ənənələrə bağlı olan yaradıcılığı Azərbaycan təsviri sənət tarixinin unudulmaz səhifələrindən birini təşkil edir.

Onun monumental və dekorativ sənət, dəzgah və kitab qrafikası sahəsində yaratdığı süjetli kompozisiyalar özünəməxsus məziyyətləri ilə seçilir. Monumental səpkili işləri Şuşadakı Yuxarı Gövhər ağa məscidinin minarələrini, öz evinin və dərs dediyi binanın divarlarını bəzəyirdi. Bizim dövrümüzə onların müəyyən hissəsi gəlib çatmışdır. Şuşanın erməni işğalında olduğu illərdə bu nümunələr də vandalizm və talana məruz qalmışdır...

səh. 7

## "YAŞAT" düşərgəsinin sonuncu həftəsi



səh. 3

## Teatrların açılması

Epidemioloji vəziyyətdən asılıdır

səh. 2




## Türk dünyasının musiqi mədəniyyətində iz qoyan sənətkar

səh. 5

# UNESCO-nun Qarabağa gəlişini otuz ilə yaxındır gözləyirik

## "Müharibəyə görə məsuliyyət həmçinin Ermənistanı beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyənlərin üzərinə düşür"



əvvəli səh. 1-də

Azərbaycan Prezidenti 2020-ci ilin sentyabrında, müharibədən cəmi bir neçə gün əvvəl, Baş Assambleyada çıxış edərkən Ermənistanın müharibəyə hazırlaşdığı barədə beynəlxalq birliyi xəbərdar etdiyini də xatırladıb: "Bu, təbliğat deyildi, Ermənistanın müharibədən əvvəlki aylar ərzində davranışının real təhlilinin nəticəsi idi. Əfsuslar olsun ki, mən haqlı çıxdım. Ona görə də, əgər Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, əgər Minsk qrupunun həmsədrləri, dünyanın üç aparıcı ölkəsi potensialının 5 faizini Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə inandırmağa və ya məcbur etməyə istifadə etsəydi, müharibə baş verməzdi. Odur ki, müharibəyə görə məsuliyyət yalnız Ermənistanın üzərində deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür. Nəticədə Azərbaycan bu qətnamələri beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirdi. Biz ədaləti, beynəlxalq hüququn normalarını bərpa etdik. Biz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özümüz yerinə yetirdik. Biz BMT-nin Nizamnaməsini rəhbər tutaraq hərəkət etdik. 51-ci maddə hər bir ölkənin özünümüdafiə hüququnu tanıyır. Beləliklə, biz bütün beynəlxalq alətlərdən istifadə edərək, öz ərazi bütövlüyümüzü bərpa etdik".

### "Hazırda bizim əsas narahatlığımız dağıdılmış ərazilərin bərpasıdır"

Dövlət başçısı vurğulayıb ki, müharibə bitib, münaqişə həll olunub, bu baş verənlər haqda danışılası heç bir məsələ qalmayıb. Biz artıq gələcəyə baxmalıyıq və hazırda bizim əsas narahatlığımız dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır: "Əlbəttə ki, biz Birləşmiş Millətlər Təşkilatı ilə bu məsələlərdə, humanitar vəziyyətlə bağlı məsələlərdə, işğaldan azad olunmuş ərazilərin bərpasına dair planlarımızla bağlı gələcək əməkdaşlığa ümid edirik. Sözsüz ki, bizim BMT institutları ilə daha çox qarşılıqlı əlaqəyə ehtiyacımız var".

Ölkəmizin bu xüsusda UNESCO ilə də təmasda olduğunu bildirən İlham Əliyev qeyd edib ki, biz UNESCO-nu, demək olar ki, 30 ilə yaxındır gözləyirik: "Bilmirəm, bunu bilirsiniz, ya yox, biz, bir neçə il bundan öncə hələ işğal dövründə, UNESCO-nu buraya səfər etməyə və bizim ərazilərdə nələrin törədildiyini görməyə dəvət etmişdik. Çünki ATƏT-in Minsk qrupu işğal olunmuş ərazilərə artıq iki faktaraşdırıcı missiya göndərmişdi. Biz onlardan yenidən bir missiya göndərməyi xahiş etdik, lakin onlar göndərmədilər. Biz UNESCO-dan tarixi abidələrimizə erməni təcavüzkarları tərəfindən dəymiş ziyanı gəlib görməyi xahiş edirdik, lakin onlar imtina etdilər. UNESCO rəsmiləri dedilər ki, UNESCO siyasi məsələlərə qarışmır. Lakin, müharibə bitdikdən sonra UNESCO tərəfindən onların gəlmək istədiyinə dair siqnallar aldıq. Əlbəttə, biz öz təəccübümüzü bildirdik. Çünki demək olar, 30 il idi ki, biz onları çağıranda gəlmirdilər. Müharibədən sonra isə gəlməyə qərar verdilər. Buna görə biz buna razılaşdıq və mənim də bildiyim qədər son məlumat belə idi ki, missiya artıq yaradılıb, amma indi Ermənistan yenə etiraz edir. Buna görə yenə də missiya gecikir".

BMT-nin digər təsisatları ilə təmasdan bəhs edən Azərbaycan Prezidenti bildirib ki, bizə ekspert biliyi və məsləhətlər nöqteyi-nəzərdən geniş beynəlxalq iştirak və yardım lazım olacaq: "Çünki indi bizim bərpa etdiyimiz ərazi on minlərlə kilometrdən çoxdur və əlbəttə ki, biz BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə təmasdayıq. Mümkün olan ən qısa müddətdə bütün keçmiş məcburi köçkünləri orada yenidən məskunlaşdırmağı planlaşdırırıq, amma əsas problem mina və hər yerin tamamilə dağıdılıb, viran qoyulmasıdır. Buna görə də Birləşmiş Millətlər Təşkilatı və qurumları ilə əsas məqsədimiz bir-birimizə etimad göstərərək və tərəfdaş olaraq azad edilmiş torpaqlarımızın bərpa edilməsinə nail olmaqdır. Bakıdakı nümayəndəliyinizin bu işə fəal cəlb olunacağına güvənirik".

Təyinatı ilə bağlı məktubu Prezident İlham Əliyevə təqdim edən xanım Vladanka Andreyeva bildirib ki, BMT ilə Azərbaycan arasında dostluğun artıq 29 yaşı var: "Gələn il, biz Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyini qeyd edəcəyik. Eyni zamanda, BMT-nin Bakıda nümayəndəliyinin açılmasının da 30 illiyi olacaq. Bir halda, qeyd olunacaq və nəzərdən keçiriləcək tarixlər çoxdur, hesab edirəm ki, son 18 ay görünməmiş hadisələrlə yadda qaldı. COVİD-19 qlobal böhrana çevrildi və bir çox dövlətlər mübarizə aparırdılar. Mən COVİD-19-a qarşı çox qətiyyətli milli cavab tədbirlərinin görülməsində Sizin və hökumətinizin göstərdiyi səyləri alqışlamaq istəyirəm. Bununla belə, Siz də qeyd etdiniz ki, bu dövrdə biz çoxtərəfliliyə, ümumi məsuliyyətə daha güclü sadiqliyimizi nümayiş etdirməli olduq. Biz, ilk olaraq, COVİD-19-a qarşı cavab tədbirlərinin müzakirəsinə həsr olunmuş Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsi, sonra isə, BMT-nin Baş Assambleyasında xüsusi sessiyanın təşkil olunması üçün göstərdiyiniz səylərə görə minnətdarıq".

Vladanka Andreyeva qeyd edib ki, Azərbaycan COVİD-19-a qarşı peyvəndləmə işlərində regionda perspektivli mövqelərdən birini tutur. BMT son 18 ay ərzində gördüyü işlərə sadiq qalaraq öz yardımını bundan sonra da göstərməyə hazırdır.

### Cənubi Qafqazda uzunmüddətli sülh və əməkdaşlıq üçün yeni dövr

Ermənistanla Azərbaycan arasında müharibənin başa çatması ilə bağlı 2020-ci il 10 noyabr tarixli Bəyanat barədə danışan BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi ümid etdiyini bildirib ki, bu sənəd Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün bərqərar olunmasında, əmin-amanlığa və əməkdaşlığa aparan yeni eraya təkan olacaq: "BMT tərəfindən dekabr ayında Qarabağ bölgəsində tələbatların qiymətləndirilməsində hökumətə dəstək olmuşuq. Biz əvvəlki təmas xətti boyu 6 rayonda minaların təmizlənməsi üçün ANAMA-ya yardım məqsədilə dərhal 1 milyon dollar topladıq. Biz minaların təmizlənməsi işində milli mütəxəssislərə dəstəyi davam etdirəcəyik, çünki anlayırıq ki, bu, prioritetdir. Eyni zamanda, BMT Dünya Bankı, Avropa İttifaqı və digər beynəlxalq tərəfdaşlar ilə fond yaradaraq, əlaqələndirmə işini aparır ki, ANAMA üçün təlimlər davam etsin və minaların təmizlənməsi prosesi ən yüksək standartlara uyğun aparılsın".

Vladanka Andreyevanın sözlərinə görə, BMT məcburi köçkünlərin bölgəyə təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı üçün göstərilən səylərin dəstəklənməsinə tam sadiqdir. O, həmçinin bu il martın 1-də BMT ilə Azərbaycan arasında əməkdaşlığa dair yeni çərçivə sənədinin imzalandığını diqqətə çatdırıb: "Növbəti beş il ərzində qarşımızda çox böyük vəzifələr qoymuşuq. Əslində, biz inklüziv artıma dəstək vermək və gənclərlə iş aparmağı arzulayırıq ki, onların əmək bazarlarına aid bacarıqları formalaşsın. Biz, həmçinin daha yaşıl iqtisadiyyatın qurulmasında və səhiyyə, sosial müdafiə, təhsil və ədliyyə sahələrində xidmət göstərən təsisatların imkanlarının gücləndirilməsində hökumətin təşəbbüslərinə dəstək vermək istərdik".

# Ali təhsil müəssisələrinə ixtisas seçimi davam edir

## DİM rəhbəri abituriyentlərə tövsiyələrini verib

Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi davam edir. Dövlət İmtahan Mərkəzindən (DİM) bildirilib ki, avqustun 24-nə olan məlumata görə, 27 minə yaxın abituriyent ərizəsini təsdiqləyib.




DİM ali təhsil müəssisələrinə qəbul planının müqayisəli təhlili ilə bağlı statistikanı da açıqlayıb. 2020-ci ildə dövlət sifarişli yerlərin sayı I-V ixtisas qrupları üzrə 21801 idisə, 2021-ci ildə bu rəqəm 1185 (5.44 faiz) yer artaraq 22986 olub.

DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə 23-24 avqust tarixlərində I-V ixtisas qrupları üzrə ixtisas seçimi ilə əlaqədar qurumun "Facebook" səhifəsində canlı yayımda abituriyentlərə tövsiyələrini verib. O, diqqətə çatdırıb ki, abituriyentlərin topladıqları bal ilə seçmək istədikləri ixtisasın ötənilki balları arasında fərq 10-15 bal aşağı və ya yuxarıdırsa, həmin ixtisasları seçmək olar. Lakin keçid balları abituriyentin topladığı baldan kəskin fərqlənirsə, məsələn 20-50 baldan çox fərq varsa, onun həmin ixtisasa qəbul olmaq şansı çox azdır deməkdir.

Eyni zamanda müxtəlif ixtisas qrupları üzrə vəziyyəti təhlil etdikdə bu strategiyada müəyyən dəyişikliklər edilə bilər.

I ixtisas qrupunda bu il plan yerləri 5.5% artıb, müsabiqəyə buraxılanların sayı isə ötən ilə nisbətən 321 nəfər azdır. Lakin 600 baldan yuxarı nəticə göstərən abituriyentlərin sayının ötən ilə nisbətən 29 nəfər çoxdur. Bu o deməkdir ki, ötən il keçid balı 600 baldan yuxarı formalaşan ixtisaslarda müsabiqə vəziyyəti bu il də yüksək olacaq. Bundan əlavə, bu il I ixtisas qrupu üzrə dövlət sifarişli yerlərin sayı 8.8% (820 yer) artıb. Bu qrupda dövlət sifarişli 10112 yerə qarşı 200 baldan yuxarı nəticə göstərən 9866 abituriyent var.

Bu il ən aşağı müsabiqə vəziyyəti II ixtisas qrupunda formalaşıb. Bu qrupda 150 və daha yuxarı bal toplayaraq müsabiqəyə buraxılanların hamısının ali təhsil müəssisələrinə qəbul olmaq şansı var. Bu qrupda subbakalavrların da şanslarını yüksək qiymətləndirmək olar. Amma keçid balları müxtəlif ixtisaslar üzrə fərqlidir.

Ən gərgin müsabiqə vəziyyəti III ixtisas qrupunda yaranıb. Burada dövlət sifarişli yerlərdə oxumaq üçün ən azı 400 baldan yuxarı nəticə göstərmək lazımdır. Ola bilsin ki, 300 baldan aşağı nəticə göstərən abituriyentlərdən ödənişli təhsil forması üzrə də ali məktəblərə qəbul olmayanlar olsun.

IV ixtisas qrupunda da bu il 500 və 600 baldan yuxarı nəticə göstərənlərin sayı artıb. Bu da Tibb Universitetinin ixtisaslarına dövlət ali təhsil müəssisələrinin dövlət sifarişli yerlərinin ballarının artmasına səbəb olacaq. Ötən il 300-400 keçid balı formalaşan ixtisaslarda bu il də həmin ballara yaxın müsabiqə vəziyyətinin yaranacağını təxmin etmək olar.

Qeyd edək ki, DİM rəhbəri avqustun 25-də V ixtisas qrupu ilə əlaqədar "Facebook" səhifəsində tövsiyələrini bölüşəcək. İxtisas seçimi avqustun 30-dək davam edəcək.

# Məktəblərdə "Zəfər tarixi" tədris olunacaq

Bütün ümumtəhsil müəssisələrinin IX siniflərində dərsdənkənar məşğələlərə ayrılan saatlardan 1 saat dərs cədvəlinə daxil edilməklə "Zəfər tarixi" kursu tədris ediləcək.

Bu, respublika ümumtəhsil müəssisələrinin 2021-2022-ci dərs ili üçün tədris planlarının təsdiqi haqqında Təhsil Nazirliyinin əmrində əksini tapıb.

Qeyd olunub ki, tədris dilindən asılı olmayaraq, "Zəfər tarixi" kursu bütün siniflərdə dövlət dilində – Azərbaycan dilində tədris olunacaq.

# Teatrların açılması

## Epidemioloji vəziyyətdən asılıdır

"Azərbaycanda xüsusi karantin rejimi müddətində teatr-konsert müəssisələrinin fəaliyyətinin davam etdirilməsi barədə qərar Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən verilə bilər".




Mədəniyyət Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Məryəm Qafarzadə bu barədə teatrların nə vaxt açılacağı ilə bağlı suallara cavabında bildirib. O qeyd edib ki, nazirlik tərəfindən məsələ ilə bağlı Operativ Qərargaha müraciət ünvanlanıb. Teatrların fəaliyyəti ilə bağlı hər hansı qərar verilərsə, ictimaiyyətə bu barədə məlumat veriləcək: "Ümid edirik ki, epidemioloji vəziyyət tezliklə stabilləşər və ölkəmizin mədəni həyatı öz axarına qayıdar".

***

Xatırladaq ki, 2020-ci ilin mart ayında COVİD-19 pandemiyası ilə bağlı xüsusi karantin rejimi tətbiq olunandan sonra teatr və konsert müəssisələrinin, eləcə də kinoteatrların fəaliyyəti dayandırılıb. Ötən müddətdə karantin rejimində hər dəfə yumşalma olarkən teatrların da açılması məsələsi gündəmə gəlib, bununla bağlı müəyyən fikirlər səslənib.

"Növbəti mərhələdə teatrların və kinoteatrların açılması da müzakirə olunur" – bu fikri iyulun 26-da jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov demişdi (APA). Prezidentin köməkçisi qeyd etmişdi ki, amma gələcəkdə bu sahənin fəaliyyətinə icazə veriləcəyi təqdirdə giriş üçün COVİD-19 pasportu tələb ediləcək.

Lakin həmin açıqlamadan sonrakı həftələrdə epidemioloji vəziyyətin yenidən ağırlaşması və COVİD-19-a yoluxma sayının kəskin artması, görünür, bu məsələni yenidən rəfə qaldırıb. Avqustun 20-də Operativ Qərargahın brifinqində indiki mərhələdə teatr və kinoteatrların açılması məsələsinə baxılmadığı bildirildi.

Eyni zamanda Operativ Qərargahın daha öncə qəbul etdiyi qərarlar diqqətə çatdırılaraq qeyd olundu ki, sentyabrın 1-dən iri ticarət mərkəzlərinə, restoran və mehmanxanalara giriş (18 yaşdan yuxarı vətəndaşlar üçün) yalnız COVİD pasportu ilə olacaq. Eyni zamanda 18 yaşdan yuxarı tələbələrin də ənənəvi təhsilə başlaması üçün vaksin olunması və COVİD pasportu əldə etməsi şərtdir.

"Hər bir vətəndaş öz addımlarına məsuliyyətlə yanaşsa, biz vaksinasiyada uğur əldə edəcəyik. Bu gün bizdə xəstəxanalarda ciddi təzyiq olmamasına səbəb peyvəndləmədir. Bizdə bu gün 24 % peyvəndləmə edilib. Biz bunu 60 %-ə qaldıra bilsək, Azərbaycanda pandemiya bitəcək. Bu, birgə məsuliyyətdir", – deyə Prezidentin köməkçisi Şahmar Mövsümov brifinqdə bildirib.

Operativ Qərargahın brifinqində indiki şəraitdə teatr və kinoteatrların fəaliyyətinin bərpa olunmayacağı barədə səslənən fikirlər incəsənət nümayəndələri tərəfindən narazılıqla qarşılanıb. Onlar COVİD pasportu ilə bir çox müəssisələrə girişin mümkün olduğu halda, teatrlara belə imkanın yaradılmadığını bildirirlər. "Əgər COVİD-19 pasportu ilə hər yerə getmək mümkündürsə, niyə teatrlara, kinoteatrlara həmin pasportla getmək olmaz", – deyə Əməkdar artist Sənubər İsgəndərli sosial şəbəkədə sual edir.

Xalq artisti Nurəddin Mehdixanlı da eyni fikirdədir: "Kinoteatrlar, teatrlar işləmir, uşaqlar Kukla Teatrına getmirlər, orta məktəb şagirdləri Gənc Tamaşaçılar Teatrına gedə bilmirlər. Biz teatr nümayəndələri, aktyorlar böyük bir nəslin mədəni tərbiyəsində yanında olmaqdan uzaqlaşdırılmışıq. Bunun nəticələri gələcəkdə yaxşı olmayacaq. İstənilən vəziyyətdən çıxış yolu var. Bu gün restoranlar, barlar, kafelər tam şəkildə işləyə bilirsə, insanlar rahat gedib-gələ bilirlərsə, nədən teatrlarda müvafiq şəraiti yaratmayaq".

Xalq artisti hesab edir ki, ilk növbədə, teatrların rəhbərləri bunda maraqlı olmalıdır. Əgər teatrın tamaşaçı zalında 500 nəfərlik yer varsa, ara məsafəsi saxlamaqla, maskalardan istifadə etməklə, gigiyena qaydalarını gözləməklə niyə 100 nəfər üçün tamaşa göstərilməsin: "Əgər biz teatrımızı bu vəziyyətdən çıxara bilməsək, geri dönməz vəziyyətlərə aparacaq. Azərbaycanda vaksin vurduran, vaksin pasportu alan kifayət qədər insan var. Onlar bu şəkildə teatrlara gələ bilərlər".

# Qafqaz Albaniyası irsi haqqında növbəti vebinar

Təhsil İnstitutu işğaldan azad edilmiş ərazilərdə tarixi, təhsil, mədəniyyət, dini məsələlər üzrə həyata keçirdiyi fəaliyyətlər çərçivəsində "Azıx mağarasından Qafqaz Albaniyasının yaranmasına qədər. Azərbaycan – dünya sivilizasiyasının mərkəzlərindən biri kimi" adlı növbəti vebinar təşkil edib.

Vebinarda spiker qismində Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi katibi, Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru İradə Qasımova çıxış edib. O, Albaniya adının etimologiyası, alban mənbələri kimi mövzulara toxunub, Qafqaz Albaniyası probleminin tədqiqi və bu problemin öyrənilməsinə Azərbaycan alimlərinin verdiyi töhfələrdən danışıb.

Qeyd edək ki, vebinarların keçirilməsində məqsəd işğaldan azad edilmiş ərazilərin mədəni sərvəti, o cümlədən Qafqaz Albaniyası irsi haqqında məlumatlandırma, təbliğat və maarifləndirmənin həyata keçirilməsidir.

# "Doğma torpaq" filminin ikinci hissəsinin çəkilişlərinə hazırlıq gedir

"Narimanfilm" studiyası "Doğma torpaq" bədii filminin ikinci hissəsinin çəkilişləri üçün hazırlıq dövrünə başlayıb.

Filmin ssenari müəllifi və quruluşçu rejissoru İlqar Safat, quruluşçu operatoru Mindia Esadze, prodüseri Nəriman Məmmədovdur. Tarixi mövzulu film azərbaycanlıların Ermənistandakı tarixi yurdlarından qovulması, Xocalı soyqırımı və işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsindən bəhs edir.

Filmdə aktyorlar Rüstəm Cəbrayılov, Alina Vorontsova, Hacı İsmayılov, Orxan Abbasov, Azər Aydəmir, Rəşad Səfərov, Qorqud Cəfər, Əminə Abbasova və başqaları çəkilir.

Layihə Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi, "PAŞA Holding", həmçinin "Gazelli Group", İTV, "Caspian Marine Services", "Azmade" və "Azersun" şirkətlərinin dəstəyi ilə həyata keçirilir.

# Dünyanı fəth edən ecazkar sənət

## 26 avqust "Azərbaycan muğamı və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü"dür

*əvvəli səh. 1-də*

Ölkəmizdə ənənəvi "Muğam aləmi" Beynəlxalq muğam festivallarının, müsabiqələrin, muğam simpoziumlarının təşkili, "Qarabağ xanəndələri" albomunun buraxılması, "Muğam" jurnalının, "Muğam ensiklopediyası"nın nəşri, müasir texnologiyalara əsaslanan və 8 diskdən ibarət "Azərbaycan muğamı" multimedia toplusunun hazırlanması Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Fondunun bu sahəyə göstərdiyi diqqətə bariz nümunələrdəndir.

Azərbaycan muğamına yeni bir həyat bəxş edən Mehriban Əliyeva bu bənzərsiz sənət inciləri ilə bağlı fikirlərini belə dilə gətirir: "Biz azərbaycanlılar hamımız, haqlı olaraq, öz doğma muğamlarımızla fəxr edirik. Hər bir azərbaycanlı üçün muğam xüsusi əhəmiyyət daşıyır. Qərblə Şərq arasında, Böyük İpək Yolu üstündə yerləşən Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkanda əsrlərboyu öz mədəniyyətini formalaşdırmışdır.



Bəzi dövrlərdə biz müxtəlif imperiyaların daxilində yaşasaq da, dinimiz, milli dəyərlərimiz, dilimiz, mədəniyyətimiz bizi bir xalq kimi, millət kimi qoruyub saxlamışdır. Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin ən gözəl incilərindən biri olan muğam, muğam sənəti bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Odur ki, desəm muğam gözəlliyin və məhəbbətin rəmzidir - səhv etmərəm".

Bəstəkarlarımız üçün ilham mənbəyi olan muğam, həm də milli musiqi mədəniyyətimizin uğurlarının əsasında durur. Dahi Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasını muğam üzərində yazıb, Fikrət Əmirov "Şur" və "Kürd-Ovşarı" simfonik muğamları ilə dünya musiqisində simfonik muğam janrının əsasını qoyub. Niyazi, Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Aqşin Əlizadə, Arif Məlikov, Firəngiz Əlizadə və digər görkəmli bəstəkarlarımızın yaradıcılığında muğamdan irəli gələn bədii prinsiplər ən müasir kompozisiya texnikası ilə qovuşur. Vaqif Mustafazadə bu janrı caz sənətinə gətirib.

Tarixən Şuşada Xarrat Qulu Məhəmməd oğlunun, Mir Möhsün Nəvvabın, Şamaxıda Mahmud Ağanın, Bakıda Məşədi Məlik Mənsurovun məclisləri, bu məkanlardan çıxan böyük sənətkarlar muğamın milli musiqimizin ana dili olduğunu bir daha təsdiqləyir. Hələ 1922-ci ildə Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına muğamın tədrisi daxil edilib. Bu sənət rəssamlarımız, heykəltəraşlarımız, şairlərimiz, rejissorlarımız üçün bu gün də ilham mənbəyidir.

Dövlətimizin muğam sənətinə, onu yaşadanlara böyük diqqət və qayğısı onları yeni-yeni yaradıcılıq axtarışına həvəsləndirir. Ustad və novator sənətkar, hələ 1999-cu ildə UNESCO-nun Beynəlxalq Musiqi Şurasının birinci mükafatına layiq görülmüş Alim Qasımovun muğamı özünəməxsus ifası bu sənətin geniş imkanları ilə dünya auditoriyasını heyran qoyur.

Xalqımızın tarixini səslərdə əbədiləşdirən muğamlarımız ən ağrılı-acılı günlərimizdə, o cümlədən Qarabağsız keçirdiyimiz illərdə həm də mənəvi təskinlik mənbəyimiz olub. 2020-ci ilin Qarabağ Zəfərindən sonra isə heyrətamiz hisslər, düşüncələr, müdriklik mənbəyi olan muğam bizə azad Vətən torpaqlarına qovuşmağın fərəhini yaşadır...

# Çin şirkəti Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sənədli film çəkir



Çinin "On the Road" ("Yolda") şirkəti Azərbaycanın işğaldan azad edilmiş əraziləri ilə bağlı sənədli filmin çəkilişinə başlayıb. Şirkətin çəkiliş qrupu ilk olaraq Şuşa şəhərinə səfər edib.

Şəhərin müxtəlif ərazilərində çəkilişlər edən qonaqlara Şuşanın tarixi, memarlıq abidələri, 1992-ci ilin mayında Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilməsi, 30 ilə yaxın dövr ərzində erməni vandalizminə məruz qalması və 2020-ci ilin noyabrında Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildikdən sonra bərpa-quruculuq işlərinə başlanılması barədə məlumat verilib.

Əvvəlcə Şuşanın mərkəzi meydanında dahi bəstəkar Üzeyir Hacıbəyli, görkəmli şairə Xurşudbanu Natəvan və böyük vokalçı Bülbülün güllələnmiş heykəllərini ziyarət edən çəkiliş qrupuna bu şəxsiyyətlərin həyat və yaradıcılığı haqqında məlumat verilib. Bildirilib ki, ermənilər tuncdan hazırlanmış heykəllərdən gəlir əldə etmək məqsədilə onları əvvəlcə İrəvana, sonra da Gürcüstana aparıb satmaq istəyiblər. Gürcüstanda yaşayan həmvətənlərimiz bununla bağlı müvafiq qurumlara məlumat veriblər. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə heykəllər öz əvvəlki yerinə qaytarılıb.

Sonra qonaqlar Şuşa şəhərindəki qədim məhəllələrdə, Aşağı Gövhər ağa və Yuxarı Gövhər ağa məscidlərində olublar. Məlumat verilib ki, işğal dövründə dini abidələr, o cümlədən məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb.

Çinli nümayəndələr Cıdır düzündə də çəkiliş aparıb, buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər. Sonda qala divarları ilə tanış olan çəkiliş qrupuna məlumat verilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri başlanıb.

Sənədli filmin çəkilişində iştirak edən Can Sinyu deyib: "Biz dünyanın bir çox yerlərinə səfər edirik. Sizin regiona hər zaman marağım olub. Əsasən də müharibə dövründə bu regionu diqqətdə saxlamışam. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olduğu üçün biz müharibədən sonrakı vəziyyəti bilmək istəyirik. Qarabağa səfərimizin məqsədi burada həyata keçirilən yenidənqurma işləri ilə tanış olmaqdır".

Qeyd edək ki, "On the Road" şirkətinin heyəti Zəngilan, Füzuli və Ağdamda da çəkilişlər aparacaqlar. Azərbaycanın işğaldan azad edilmiş əraziləri ilə bağlı çəkiləcək sənədli film Çinin SETV kanalında və bir sıra sosial şəbəkələrdə yayımlanacaq.





# Beynəlxalq Ordu Oyunlarında "Mədəniyyət Ordusu" müsabiqəsi

Avqustun 23-də Moskva vilayətinin Kubinka qəsəbəsində "Armiya-2021" Beynəlxalq Hərbi-Texniki Forumu və "ARMİ-2021" 7-ci Beynəlxalq Ordu Oyunlarının təntənəli açılışı olub. Mərasimdə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin də iştirak edib.

Açılış mərasimində Azərbaycanı müdafiə nazirinin müavini – Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Sentyabrın 4-dək davam edəcək "ARMİ-2021" 7-ci Beynəlxalq Ordu Oyunlarında 34 növdə yarışlar keçiriləcək. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan hərbçiləri "Tank biatlonu" yarışlarına qatılacaq və Belarus, Qazaxıstan, Serbiya ilə eyni qrupda mübarizə aparacaqlar.

Müdafiə nazirinin müavini Alabino hərbi poliqonunda "Tank biatlonu" müsabiqəsində iştirak edən hərbi qulluqçularla görüşüb və onlara uğurlar arzulayıb.

Ölkəmiz poliqondakı "Dostluq evi"ndə keçirilən "Mədəniyyət Ordusu" müsabiqəsində də təmsil olunur. Burada Azərbaycanın hərb, dövlətçilik tarixi və mədəniyyətini əks etdirən stend açılıb.

"Mədəniyyət Ordusu" yaradıcılıq müsabiqəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının kollektivi iştirak edir. Yaradıcılıq müsabiqəsində komandamız "Vokal ustalığı", "Xoreoqrafik bacarıq", "İnstrumental janr" və "Sərgi fəaliyyəti" mərhələləri üzrə mübarizə aparacaq. Yarışlara 20-dək ölkədən 500-dən artıq musiqiçi, vokalist və rəqqas qatılıb.



Müsabiqənin birinci günü "Vokal ustalığı" və "İnstrumental janr" mərhələləri üzrə yekunlaşıb. Solistlərimizin ifasında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib. Azərbaycan xalq çalğı alətlərində hərbçilərimizin çıxışı hakimlərin və zala toplaşanların böyük marağına səbəb olub.

Müsabiqə sentyabrın 5-dək davam edəcək.

# Özbək şairin "44 gün" kitabının təqdimatı



Özbəkistanın tanınmış yazarı, "Kitab dünyası" qəzetinin baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin (AYB) fəxri üzvü Xasiyyət Rüstəmin İkinci Qarabağ müharibəsinə həsr olunan "44 gün" kitabının Sumqayıtda təqdimatı keçirilib.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) maliyyə dəstəyi ilə işıq üzü görən kitabda müəllifin "Adı Lalə idi o qızın..." poeması da yer alıb.

Tədbiri giriş sözü ilə açan Əli Kərim adına Sumqayıt şəhər Poeziya evinin direktoru İbrahim İlyaslı nəşri həm Azərbaycan, həm də özbək oxucuları üçün çox dəyərli kitab adlandırıb. O, tarixçi-yazar Şöhrət Barlasın (Salamov) da Türk dünyası üçün önəmli işlərə imza atdığını vurğulayıb. Qeyd edib ki, həm Xasiyyət xanım, həm də Şöhrət Barlas Özbəkistan-Azərbaycan ədəbi-mədəni bağlarının möhkəmlənməsində xidmətlərə görə Sumqayıt şəhər Poeziya evinin fəxri üzvü seçiliblər.

Kitabın ədəbi məsləhətçisi, Milli Məclisin Mədəniyyət komitəsinin rəhbəri Qənirə Paşayeva Xasiyyət Rüstəmin fədakar əməyini yüksək dəyərləndirib: "Dünyanın müxtəlif yerlərində eyni qanı daşıdığımız qardaşlarımız var. Amma 44 günlük müharibə dövründə qardaşlarımız arasında susanlar oldu. Ürəyi bizimlə döyünən qardaş-bacılarımızı da gördük. Zəfərimizə bizimlə birgə sevindilər. Xasiyyət xanım da onlardan biridir".

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov Şuşa səfərinin unudulmaz olduğunu dilə gətirib: "Şuşaya məhz özbək qardaşlarla səfər etməyimizin səbəbi onların dar günlərdə bizə göstərdiyi dəstəkdir. Müharibə dövründə əlimizdən gələn qədər özbək qardaşlarımızı maarifləndirir, Azərbaycan həqiqətlərini təbliğ edirdik. Mədəniyyət Mərkəzi 44 gün ərzində 244 məqalə dərc etdirdi. Xasiyyət xanım və Şöhrət bəy bizə bu işdə çox böyük dəstək göstərdilər".

# "YAŞAT" düşərgəsinin sonuncu həftəsi

"YAŞAT" Fondunun və "ASAN Könüllüləri"nin birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən "YAŞAT" düşərgəsinin, sonuncu altıncı həftəsinin də maraqlı proqramı var. Fonddan verilən məlumata görə, düşərgənin altıncı həftəsi 15-18 yaş kateqoriyasında şəhid övladlarını əhatə edir.

Düşərgə boyunca psixoloqlar tərəfindən art və rəqs terapiyalar keçirilir. Konsultasiyalar zamanı aşkarlanmış problemlər üzrə müalicəyə ehtiyacı olan uşaqlar müəyyənləşdiriləcək və Fond tərəfindən düşərgədən sonra müalicə prosesinə cəlb olunacaqlar.

Layihənin tərəfdaşları tərəfindən iştirakçılara müxtəlif hədiyyələr təqdim edilir.

2021-ci ilin 12 iyul tarixindən şəhid övladları üçün başlayan yay düşərgələri avqust ayının sonuna qədər davam edəcək. Layihə ümumilikdə 300-dək uşağı əhatə edir.

# "Mənim atam qəhrəmandır" layihəsində növbəti tədbir

Vətən müharibəsində şəhid olmuş qəhrəmanların övladları üçün müvafiq dövlət qurumlarının dəstəyi və "Fire Land Production"ın təşkilatçılığı ilə reallaşdırılan "Mənim atam qəhrəmandır" layihəsi çərçivəsində növbəti tədbir keçirilib.



Tədbir Dağüstü parkda təşkil olunub. Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzindən ekskursiya avtobuslarında şəhəri gəzən şəhidlərin övladları "Zəfər marşı"nı ifa edərək tədbirə qatılıblar. Tədbirin rəsmi hissəsində aparıcı Nərgiz Cəlilova qəhrəman övladlarını, şəhid analarını və xanımlarını, tədbirə qatılan digər qonaqları salamlayıb, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra çıxış edən Müdafiə Nazirliyinin Sosial müdafiə şöbəsinin rəisi Həbib Məmmədov Vətən uğrunda canından keçmiş oğullarımızın övladlarının hər birimiz üçün bir əmanət olduğunu vurğulayıb, bu cür tədbirlərin əhəmiyyətini diqqətə çatdırıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov da şəhid və qazilərimizin qəhrəmanlıqlarının xalqımız tərəfindən heç vaxt unudulmayacağını qeyd ediblər.

"Fire Land Production"ın rəhbəri Cəlal Qurbanov tədbirin əsas məqsədinin qanı ilə tarix yazan hər bir şəhidimizin uşaqdan böyüyə hər kəsin yaddaşına həkk olunması, daim qürurla xatırlanması olduğunu deyib. O, layihənin hüdudlarının təkcə Bakı şəhərini əhatə etməyəcəyini, Azərbaycanın digər bölgələrində də bu cür tədbirlərin keçiriləcəyini bildirib.



Tədbirin qonağı – Əməkdar artist Sevda Ələkbərzadə də qəhrəmanlarımızın anaları, ailə üzvləri ilə hisslərini bölüşüb, "Sən yadıma düşəndə" mahnısını ifa edib.

Sonra "Əbədi məşəl" abidə-kompleksində qəhrəmanlarımızın övladları "Zəfər" marşını oxuyaraq və səmaya ağ göyərçinlər uçuraraq dünyaya "Müharibə olmasın! Uşaqlar atasız qalmasın!" mesajını veriblər. Qəhrəmanların övladlarına "Xarıbülbül" döş nişanı hədiyyə olunub.

## Torpağı Vətən edənlər

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Dağkəsəmən kəndində şəhidlərin xatirəsinə ucaldılan "Xarıbülbül" abidə kompleksini ziyarət ediblər. Tovuz rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları isə Vətən müharibəsi şəhidi Emin Hüseynovun doğum günündə məzarını ziyarət edib, ailəsinə baş çəkiblər.



Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon Zərdabi qəsəbə kitabxanasının əməkdaşları Folklor evinin kollektivi ilə birlikdə Vətən müharibəsi şəhidi Seymur Qocayevin ailəsini ziyarət edib.



Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları rayonun Qandax kəndindən olan Vətən müharibəsi şəhidi Şahin İsgəndərovun ailəsini və məzarını ziyarət ediblər.

Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon Mədəniyyət Mərkəzinin kollektivi Vətən müharibəsi şəhidi Daşqın Şəfiyevin doğum günü ilə əlaqədar məzarını ziyarət edib. Samux rayon Mədəniyyət Mərkəzində Vətən müharibəsi qaziləri ilə dəyirmi masa keçirilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Zalam kənd Mədəniyyət evi "Əbədi və əzəli torpaqlarımız" adlı videoçarx ərsəyə gətirib.

## Bütün bəşəriyyətin şairi

Ağcabədi Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə "Nizami Gəncəvi – bütün bəşəriyyətin şairi" başlığı altında tədbir keçirilib.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzinin 3D kinozalında "Nizami Gəncəvi İli" çərçivəsində rayon gəncləri üçün "Nizami" (1982) filmi nümayiş etdirilib.



Çıxış edənlər filmin gənclərə söz ustasının həyat və yaradıcılığı ilə yaxından tanış olmağa, Nizami irsinin Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatına təsirini öyrənməyə kömək etdiyini vurğulayıblar.



Ağstafa Regional Mədəniyyət İdarəsi Qazax Dövlət Rəsm Qalereyası və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi yaradıcılığı gənc rəssamların fırçası ilə" başlığı altında rəsm müsabiqəsi keçirilib. Eşqin Quliyev I, Ema Carçılı II, Ruhin Xasməmmədov və Zülfüqar Abdullayev isə III yerlərə layiq görülüblər.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin 1-ci Nügədi və Digah kənd kitabxanaları "Nizami Gəncəvi İli" münasibətilə tədbirlər keçiriblər.

Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon Heydər Əliyev Mərkəzində "Nizami Gəncəvi İli" ilə əlaqədar dəyirmi masa təşkil olunub. Tədbirdə Nizami Gəncəvinin yaradıcılığı haqqında videoçarx nümayiş etdirilib.

## Bölgələrdə müxtəlif səpkili tədbirlər



Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması və Bərpası üzrə Dövlət Xidmətinin Gəncə Regional İdarəsinin rəisi Həsən Mirzəyev və Gəncə İctimai İştirakçılıq Məclisinin üzvləri ilə görüşüb. Görüşdə Gəncə şəhəri ilə bağlı bir çox aktual məsələlər müzakirə edilib, müxtəlif istiqamətlərdə birgə fəaliyyət planı nəzərdən keçirilib.

İdarənin tabe müəssisəsi olan Goranboy rayon Mərkəzi Kitabxanası tanınmış yazıçı-dramaturq, satirik şair, jurnalist, tərcüməçi Seyfəddin Dağlının (Seyfəddin Əliağa oğlu Abbasov; 1921-1983) anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirib.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları rayon Gənclər evinin təşkilatçılığı ilə Lənkəran şəhəri və Lerik rayonunda yerləşən mədəniyyət və turizm müəssisələrinə ekskursiyalarda iştirak ediblər. Ekskursiya zamanı iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun Lənkəran şəhərindəki ev-muzeyi də ziyarət edilib.

Regional idarənin tabeliyindəki Yardımlı rayon Heydər Əliyev Mərkəzində gənc mədəniyyət işçiləri və digər sahələrdən olan gənclər üçün internet resurslarından düzgün istifadə, həmçinin onlayn biznes və digər fəaliyyət sahələri üzrə gəlir əldə etməyin üsullarından bəhs edən "Gənc qazansın" adlı təlim keçirilib.

Sumqayıt Regional Mədəniyyət İdarəsi Qubadlı rayon F.Hüseynov adına Mahmudlu kənd Uşaq musiqi məktəbinin fortepiano şöbəsi üzrə 5-ci sinif şagirdi Aylin Əsədli "Yunanıstan ulduzları" adlı beynəlxalq onlayn musiqi müsabiqəsində 3-cü yerə layiq görülüb.



Sabirabad Regional Mədəniyyət İdarəsi Saatlı rayon Heydər Əliyev Mərkəzində "Narkomaniyaya yox deyək" adlı tədbir təşkil olunub. Çıxışlar zamanı narkomaniyanın insan sağlamlığına, mənəviyyatına və psixologiyasına zərəri haqqında söz açılıb.

Şəki Regional Mədəniyyət İdarəsi Qax rayon MKS-nin təşkilatçılığı ilə Xalq şairi Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığına həsr olunmuş "Bu da belə bir ömürdü, yaşadım" adlı tədbir keçirilib. Qaxın Şıxlar kənd klubu və kitabxanasının əməkdaşları, orta məktəbin bir qrup şagirdi Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiya ediblər. Muzeyin bələdçisi Nərgiz Həsənova qonaqları muzeyin fondundakı eksponatlarla tanış edib.

İdarənin əhatə etdiyi Qax rayon Ağçay kənd kitabxanasında "Yay məktəbi" çərçivəsində "Oyna, qalib ol!" adlı stolüstü oyun yarışması təşkil olunub.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ rayon Heydər Əliyev Mərkəzində saz-söz ustadı Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə "Azərbaycanın ustad aşığı" adlı tədbir keçirilib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Neftçala Rayon Tarix-Diyarşünaslıq Muzeyi "Qeyri-maddi mədəni irsimiz" başlığı altında sərgi təşkil edib.

Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə rayon Mədəniyyət Mərkəzinin filialları görkəmli xanəndə, Xalq artisti Xan Şuşinskinin (1901-1979) anadan olmasının 120 illiyi ilə bağlı videoçarxlar hazırlayıblar.



Şəmkir Regional Mədəniyyət İdarəsi Göygöl rayonu üzrə nümayəndəliyinin təşəbbüsü, Göygöl rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə dünya şöhrətli müğənni və bəstəkar, SSRİ Xalq artisti Müslüm Maqomayevin (1942-2008) anadan olmasının 79-cu ildönümü ilə əlaqədar tədbir təşkil olunub.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Amsar kənd kitabxanası kənd ərazisində yerləşən "Qırmızı qərənfil" istirahət zonasında səyyar kitabxana xidməti təşkil edib. MKS-nin Aşağı Xuc kənd kitabxanası isə "Aşıq poeziyamızın saflıq, müdriklik nəhəngi – Aşıq Ələsgər" mövzusunda tədbir keçirib.

**Hazırladı: N.MƏMMƏDLİ**

## Şəhid və qazi övladları üçün "Zəfər düşərgəsi"

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən şəhid və qazi övladları üçün "Zəfər düşərgəsi" başa çatıb.



Üç gün davam edən düşərgənin ilk günündə iştirakçılar Şahbuz rayonunda yerləşən Ağbulaq İstirahət Mərkəzi ilə tanış olublar. Naxçıvan şəhərindən dəvət edilmiş psixoloq tərəfindən onlarla psixoloji seanslar aparılıb. Uşaqlara yapon kağız sənəti – origami üzrə ustad dərsi keçirilib. Günün sonunda film nümayişi təşkil olunub.

"Zəfər düşərgəsi"nin ikinci günündə Naxçıvan Dövlət Kukla Teatrının düşərgəyə gəlişi böyük sevinclə qarşılanıb. Kukla tamaşaları ilə yanaşı, sosial könüllülərin iştirakı ilə uşaqlar üçün müxtəlif əyləncəli oyunlar təşkil edilib. Sonra sağlamlıq imkanları məhdud uşaqlardan ibarət "Ümid" musiqi qrupunun və rayon Mədəniyyət evinin "Batabat" instrumental ansamblının konsert proqramı təqdim olunub.

Muxtar respublikanın əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çay süfrəsi ətrafında uşaqlarla görüş keçirib. Tədbirdə uşaqlara hədiyyələr təqdim olunub.

"Zəfər düşərgəsi"nin sonuncu günü də iştirakçılar üçün yaddaqalan olub. Düşərgə iştirakçıları müxtəlif əyləncəli oyunlarda, rəsm və milli yeməklərin hazırlanması üzrə ustad dərslərində həvəslə iştirak ediblər.

## Ağdamda Vətən müharibəsində Qələbəmizə həsr olunmuş sərgi açılıb

Avqustun 20-də Ağdamın Quzanlı qəsəbəsində Azərbaycan Rəssamlar İttifaqının (ARİ) fəxri üzvləri Elnurə və Aygün İsgəndərovaların Vətən müharibəsində Qələbəmizə həsr olunmuş "Milli-mənəvi dəyərlərimiz" adlı ilk fərdi yaradıcılıq sərgisi açılıb.



Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı, Ağdam Rayon İcra Hakimiyyəti və Ağdam rayon Heydər Əliyev Mərkəzinin dəstəyi ilə gerçəkləşən sərgidə rəssam bacıların 50-yə yaxın əl işi nümayiş olunub.

Aygün İsgəndərova jurnalistlərə açıqlamasında bildirib ki, bu onların Qarabağ Zəfərinə həsr olunmuş ilk fərdi yaradıcılıq sərgisidir.

Xalq rəssamı Arif Hüseynov belə sərgilərin gənclərin maarifləndirməsinə və yaradıcılıq həvəsinin artmasına xidmət etdiyini deyib, sərginin simvolik məna daşıdığını vurğulayıb: "İstərdim ki, Azərbaycanın bütün bölgələrində belə sərgilər təşkil olunsun".

## "Yolumuz Qarabağadır" adlı layihə həyata keçirilib

Kürdəmir Regional Mədəniyyət İdarəsi əhatə etdiyi Kürdəmir, İmişli, Beyləqan, Füzuli və Xocavənd rayonları üzrə şəhid övladları üçün "Yolumuz Qarabağadır" adlı layihə həyata keçirib.

Layihə 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olan döyüşçülərin övladlarını vətənpərvərlik ruhunda tərbiyə etmək, mədəniyyət sahəsi üzrə biliklərini artırmaq, asudə vaxtlarının səmərəli təşkili məqsədilə reallaşdırılıb. İki gün davam edən layihə çərçivəsində uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, tanınmış peşəkarlarla, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər təşkil edilib.



Layihənin birinci günü – avqustun 21-də Füzuli rayonuna səfər olub. Rayon Heydər Əliyev Mərkəzinə və Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiyalar təşkil edilib. Füzuli rayon Muğam Mərkəzində tanınmış aktyor, qiraətçi Kamal Yaşarın iştirakı ilə uşaqlar üçün "qiraət saatı" keçirilib. Psixoloqlar Aynur Xudanlı və Ləman Səfərova uşaqlarla fərdi və qrup şəklində söhbət aparıb, psixoloji oyunlar təşkil ediblər.

Avqustun 22-də Beyləqan rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən "Gənclik" teatrı xüsusi olaraq uşaqlar üçün hazırlanmış tamaşa təqdim edib. Şəhid övladlarının "Səfər xatirələrim" adlı şifahi mini-esseləri dinlənilib. Kamal Yaşarın iştirakı ilə daha bir "qiraət saatı" gerçəkləşib. Daha sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin "Qayıdış" parkında əyləncəli oyunlar təşkil olunub.

Sonda layihə iştirakçılarına sertifikatlar təqdim edilib. Layihəyə Kürdəmir Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi beş rayondan 8-14 yaşında 17 şəhid övladı qatılıb.

## Erməni vandalizmi ilə üz-üzə



Otuz ilə yaxın işğal altında qalan Azərbaycan torpaqlarında erməni vandalizminin izləri saymaqla bitmir. Hər tərəfdə erməni vəhşiliyinin izlərinin şahidi oluruq. AZƏRTAC-ın bölgə müxbiri Zəngilana səfəri zamanı bir daha erməni faşizmindən geriyə qalan izlərlə rastlaşıb...

Azərbaycan Ordusunun 44 günlük Zəfər yürüşü zamanı azad etdiyi tarixi torpaqlarımıza doğru səfərə çıxırıq. İstiqamət Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonudur. Bizi yolboyu təhlükəsizliyin təmin olunması üçün ərazidə xidmət aparan Daxili İşlər Nazirliyinin əməkdaşları müşayiət edirdi.

Polis əməkdaşı bizi qədim türbənin yerləşdiyi Məmmədbəyli kəndinə tərəf apardı. Kənd boyu dağılan evlər, məhv edilmiş flora və fauna erməni vandalizmindən xəbər verirdi. Kənddə bir tək salamat qalan tikili isə Məmmədbəyli türbəsidir. Bizimlə yol yoldaşı olan AMEA-nın aparıcı elmi işçisi Şakir Albalıyev həmin türbənin tarixindən söhbət açaraq bildirdi ki, Azərbaycan ərazisində belə türbələr çoxdur. Piramida formasında səkkizguşəli türbə XIV əsrdə inşa olunub. İşğal ərəfəsində türbə erməni vandalizminə məruz qaldığı üçün bir çox yerlərində dağıntılar var.

Məmmədbəyli türbəsində çəkilişi yekunlaşdırdıqdan sonra yolumuza davam edən zaman daha dəhşətli bir mənzərə ilə rastlaşdıq. Bizi müşayiət edən polis əməkdaşı avtomobili yolun kənarında saxlayaraq yoxuş bir yeri işarət etdi. Bu yerin nə olduğunu soruşduq, aldığımız cavabdan isə donub qalmışdıq. Həmin ərazi vaxtilə Məmmədbəyli kəndinin qəbiristanlığı olub. İşğal zamanı digər ərazilər kimi, bu qəbiristanlıq da yerlə yeksan edilib. Qəbiristanlıqdan əsər-əlamət belə qalmayıb. Bu faktın özü belə otuz ilə yaxın dövrdə Azərbaycanın necə bir faşizmlə üz-üzə olduğunu təsdiqləyir.

Lakin çox keçməyəcək ki, viran qoyulmuş bu torpaqlar yenidən qurulacaq, dirçələcək...

## Şamaxı Astrofizika Rəsədxanasında "Yay Fest"

AMEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında gənclər üçün "Yay Fest" düşərgəsi təşkil olunub. Layihə üzrə müxtəlif tədbirlər keçirilib.



"Ulduzlara doğru" devizi ilə gerçəkləşən festivalda gənclər üçün astroseminar təşkil edilib.

Rəsədxananın "Planetlər və kiçik səma cisimləri" şöbəsinin müdiri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Ədalət Ətayi düşərgə iştirakçılarına astronomiyanın tarixi, rəsədxananın qurulması, aparılan astronomik tədqiqatlar haqqında məlumat verib. Alim Günəş sistemi planetləri, kosmik aparatlar və yerdənkənar sivilizasiyalar haqqında məruzə ilə çıxış edib.

Nəzəri astroseyahətdən sonra festival iştirakçıları 70 santimetrlik teleskop ilə Ayı və Saturnu müşahidə ediblər.

# Türk dünyasının musiqi mədəniyyətində iz qoyan sənətkar



Görkəmli dirijor və bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı Niyazinin (Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyov; 1912-1984) anadan olmasının 109-cu ildönümü ilə bağlı avqustun 20-də sənətkarın mənzil-muzeyində tədbir keçirildi.

Tədbiri giriş sözü ilə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq diqqətə çatdırdı ki, muzeyin kollektivi Fəxri xiyabanda maestronun məzarını ziyarət edib. Niyazini Azərbaycan xalqının milli sərvəti kimi səciyyələndirən direktor dedi ki, onun adı hər zaman böyük ehtiramla anılır: "O, nəinki Azərbaycanın, eyni zamanda bütün Türk dünyasının musiqi mədəniyyətinin inkişafında xidmətləri olan şəxsiyyətdir. Bu günlərdə Heydər Əliyev Fondu "Əbədi imzalar" layihəsi çərçivəsində Niyazinin əsərlərindən ibarət 7 məcmuə çap etdirərək sənətkarın mənzil-muzeyinə hədiyyə edib. "Əbədi imzalar" layihəsi Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-cu ildən həyata keçirilir və Azərbaycan mədəniyyətinə, milli mədəni və mənəvi dəyərlərimizin qorunub saxlanılmasına, təbliğ olunmasına çox dəyərli töhfədir. Layihədə Azərbaycan bəstəkarlıq məktəbinin altı görkəmli nümayəndəsinin – Asəf Zeynallı, Niyazi, Cövdət Hacıyev, Qara Qarayev, Fikrət Əmirov və Vasif Adıgözəlovun musiqi külliyyatı 71 məcmuədə nəşr olunub. Onların hər biri ayrı-ayrılıqda musiqi tariximizdə ilklərə imza atmış bəstəkarlardır".

Alla Bayramova onu da diqqətə çatdırdı ki, "Əbədi imzalar" toplusunda nəşr olunan əsərlərin bir çoxu ilk dəfə işıq üzü görür: "Topluda yer alan bəzi əsərlər sovet dövründə dərc olunsa da, nəşrlərin əksəriyyətində ciddi çap səhvləri var idi.




Buna görə də həmin musiqi materiallarının hamısı bir daha ciddi redaktə prosesindən keçib. Eyni zamanda Azərbaycanda, həm də xarici ölkələrin arxivlərində əsərlərin notları araşdırılıb. Bəstəkarların əlyazmaları ilə müqayisələr aparılıb və ən uğurlu variantlar seçilərək yenidən nəşr edilib.

Çıxışdan sonra konsert proqramı təqdim olundu. Respublika və beynəlxalq müsabiqələr laureatları Nərmin və Şirin Əmiraslanovaların fortepianoda müşayiəti ilə Sevinc İbrahimovanın ifasında Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasından müqəddimə və II pərdəyə giriş, Niyazinin "Xosrov və Şirin" operasından Şirinin ariyası, Cahangir Cahangirovun "Gül camalın", Hacı Xanməmmədovun "Surəti canan görünür" və Ağabacı Rzayevanın "Könlüm" qəzəl-romansları səsləndirildi. Çıxışlar alqışlarla qarşılandı.

Qeyd edək ki, həmin gün Niyazinin Mənzil-Muzeyində "açıq qapı" günü elan edilmişdi. Gün ərzində muzeydə maestro haqqında çəkilmiş sənədli filmlər, eləcə də videokonsertlər və Niyazinin musiqi müəllifi olduğu ekran əsərləri nümayiş olunub.

**Savalan FƏRƏCOV**

# "Yaradıcılığımı Şərq və Qərb arasında bölmüşəm"

## "Məni Türkiyə kimi gözəl ölkəyə layiq gördüyü üçün Tanrıya minnətdaram"

Xəbər verdiyimiz kimi, tanınmış amerikalı müğənni Della Mayls (Della Miles) avqustun əvvəlində Azərbaycanda olub. Müğənni Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına – Şuşa və Füzuliyə də səfər etmiş, Qarabağ haqqında təəssüratını bölüşmüşdü.

Della Milayes artıq bir neçə ildir ki, Türkiyədə yaşayır. Müğənni Amerikadan Türkiyəyə köçməsini, o cümlədən sənət həyatını bu ölkədə davam etdirməsini Tanrının ona lütfü sayır. Della Milayes ABŞ-ın Texas ştatında musiqiçi ailədə dünyaya gəlib, sonra Los-Ancelesə köçüb...

– 6 uşaqlı ailənin ən kiçiyi idim. Valideynlərim musiqini çox sevirdilər. Demək olar ki, musiqi ilə əhatələnmişdik. Universiteti bitirəndən sonra anladım ki, gələcəyimi musiqi ilə qurmaq istəyirəm. Texası tərk edib Los-Ancelesə köçdüm. Los-Anceles mənim yenidən doğuluşum oldu. Çünki orada Uitni Hyuston, Maykl Cekson kimi əfsanələrlə tanış olub çalışmaq imkanı qazandım. Sonra Amerikaya sığmadığımın fərqinə varıb, Avropaya, daha dəqiq desəm, Türkiyəyə köçdüm. İndi yaradıcılığımı Şərq və Qərb arasında bölmüşəm. Bu təcrübə mənim üçün çox maraqlıdır.



*– Dünya musiqisinin iki əfsanəsi ilə çalışmısınız. Zənnimcə, böyük xoşbəxtlikdir.*

– Karyeramın başlanğıcında idim. Uitni məni öz komandasına vokalçı dəvət etdi. Uitni mənim üçün nəhəng ulduz idi. Bu təklif gələndə çox təəccüblənmişdim. Milyonların bir dəfə də olsa uzaqdan görmək istədikləri ulduzun yanında olmaq, ünsiyyət qurmaq, ən əsası, birgə mahnılar ərsəyə gətirmək sonsuz xoşbəxtlikdir. Uitni çox mehriban qadın idi. Mayklla isə çox ünsiyyətdə olmamışam. Mən onun prodüseri olduğu layihələrə ifaçı kimi dəvət almışdım. Məşqlərə hər gəlişi mənim üçün bayrama çevrilirdi. İndi həmin vaxtları xatırladıqca eyni sevinc, həyəcan yenə qəlbimə dolur.

*– Hazırda türk bəstəkar Turqay Evrənlə planet, insanlıq adına maraqlı layihələr üzərində çalışırsınız. Bura həmçinin Qarabağa həsr olunmuş kompozisiya da daxildir...*

– Turqay bəyin layihələrinin bir parçası olmaq məni sevindirir. Bildiyiniz kimi, dünyanı haqsızlıq önündə ayağa qaldıran mahnılarının sözləri də özünə məxsusdur. Musiqisində insanlığa, ədalətə sevgi duyulur. Onunla söhbətin özü də təmiz hava ilə nəfəs almaq kimidir. Elə işğaldan azad olunmuş Şuşa şəhərinə səfərim də onunla layihəmin məhsulu idi.

*– Amerikadan Türkiyəyə köçməyin asan qərar olmadığını təxmin edirəm.*

– Uşaqlıqdan anama deyirdim ki, mən Amerikada yaşamayacağam. Tanrı həyatımın pilotudur, bütün arzularımı gerçəkləşdirir. Məni Türkiyə adlı gözəl ölkəyə layiq gördüyü üçün ona sonsuz minnətdaram. Doğrudur, ailəm, sevdiklərim Amerikadadır, amma yenə də yerimdən məmnunam.

**Leyla SARABİ**

# Folklor nümunələri dövlət qeydiyyatına necə alınacaq?

Azərbaycan folkloru nümunələrinin və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınmasında dəyişikliklər edilib. Bununla bağlı yeniliklər Nazirlər Kabinetinin 20 avqust 2021-ci il tarixli 233 nömrəli Qərarı ilə təsdiqlənən "Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması Qaydası"nda əksini tapıb.

Baş nazir Əli Əsədov tərəfindən imzalanan qərar ilə, həmçinin "Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması barədə Şəhadətnamənin nümunəsi" təsdiq edilib.

Sənəd "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 274-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi"ndə və "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasını təmin etmək məqsədilə hazırlanıb.

Qayda Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin hüquqi qorunması və qeydiyyatı üzrə müvafiq hüquqi prosedurları müəyyən edir. Azərbaycan folkloru nümunələrindən və Azərbaycanın ənənəvi biliklərindən ölkəmizdə və xaricdə istifadə olunarkən bəzi hallarda həmin nümunələrin mənbəyi, mənsub olduğu xalqın və ya yarandığı coğrafi yerin adı dəqiq göstərilmir, yaxud yanlış göstərilir. Bu qərarın qəbul edilməsi ilə Azərbaycan folkloru nümunələrinin hüquqi qorunmasını təmin edən təsirli qoruma və müdafiə mexanizmlərinin yaradılması mümkün olacaq.

"Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması Qaydası"nda bu sahədə istifadə olunan əsas anlayışların mənaları da diqqətə çatdırılır.



Azərbaycan folkloru nümunələri (ənənəvi mədəni nümunələri) – "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Qanunun 2-ci maddəsində qeyd olunan Azərbaycan xalqı, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, Azərbaycan xalqının ənənəvi-bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən, şifahi şəkildə yaradılan söz sənəti nümunələri, xalq musiqisi, oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olan və olmayanlar), eləcə də digər xalq yaradıcılığı nümunələri.

Azərbaycanın ənənəvi bilikləri – "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 4-cü maddəsinə uyğun olaraq, ənənəyə əsaslanan əqli fəaliyyətin nəticəsi olan və nəsildən-nəslə ötürülərək qorunub saxlanılan elmi, ədəbi, bədii və sənaye sahələrində yeniliklər və yaradıcılıq nəticələri.

Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin hüquqi qorunması – Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin hər hansı qeyri-qanuni istifadədən və onlara zərər vuran digər hərəkətlərdən qorunması.

Azərbaycan folkloru nümunələrinə (ənənəvi mədəni nümunələrə) və Azərbaycanın ənənəvi biliklərinə əqli mülkiyyət hüquqlarının sahibi (hüquq sahibi) Azərbaycan Respublikasıdır.

Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin qeydiyyata alınması onların hüquqi qorunması məqsədini daşıyır və əqli mülkiyyət obyektləri kimi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində dövlət qeydiyyatına alınır. Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin əqli mülkiyyətin xüsusi növləri kimi hüquqi qorunması Agentlik tərəfindən həyata keçirilir.

Qaydanın müddəaları Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) əsasında yaradılmış müəlliflik hüququ və əlaqəli hüquqların yeni obyektləri, həmçinin Azərbaycanın ənənəvi bilikləri əsasında yaradılmış patent qabiliyyətli obyektləri ilə bağlı məsələlərə şamil edilmir.

# "Tarixi Qələbə" – onlayn rəsm müsabiqəsi

Təhsil Nazirliyinin dəstəyi, 2 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin təşkilatçılığı ilə "Tarixi qələbə" onlayn respublika rəsm müsabiqəsi keçirilir. Nazirlik sistemində fəaliyyət göstərən uşaq-gənclər inkişaf mərkəzlərinin dərnək üzvləri arasında keçirilən müsabiqə noyabrın 6-dək davam edəcək.




Müsabiqə 3 yaş qrupunda (6-9 yaş, 10-13 yaş, 14-18 yaş) keçirilir. İştirakçılar oktyabrın 20-dək rəsm işini 2 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin elektron ünvanına (ugim-2@mk.edu.az) göndərməlidir. Əl işləri 21 oktyabr – 6 noyabr tarixlərində münsiflər heyəti tərəfindən qiymətləndiriləcək.

Rəsmlər A3 və ya A4 formatda işlənməli, rəsmlərin aşağı sağ küncündə rəsmin adı, dərnək üzvünün adı, soyadı, yaşı və mərkəzin adı qeyd olunmuş etiket vurulmalıdır.

Müsabiqə ilə bağlı yaranan suallar (+994) 55-994-57-86, (+994) 12-372-72-63 nömrələri vasitəsilə cavablandırılır.

# Bişirmək sənəti – yemək mədəniyyəti

## Ölkəmizdə ilk dəfə "Slou Fud" menyusunun təqdimatı keçirilib

Avqustun 20-də Şamaxı rayonunun Adnalı kəndində Avropa İttifaqının maliyyə dəstəyi və Azərbaycan Turizm Bürosunun, həmçinin Beynəlxalq Slou Fud Assosiasiyasının birgə həyata keçirdiyi "Azərbaycanda Böyük Qafqaz dağları ərazisində icma əsaslı dəyər zəncirinin genişləndirilməsi" (COVCHEG ) layihəsi çərçivəsində Azərbaycanda ilk dəfə "Slou Fud" fəlsəfəsinə əsaslanan menyunun təqdimatı keçirilib.



Dövlət Turizm Agentliyindən bildirilib ki, menyunun hazırlanmasında "Slou Fud dad gəmisi"nə daxil olan yerli məhsullardan istifadə edilib. "Dad gəmisi" beynəlxalq onlayn kataloq olaraq yox olmaq təhlükəsi ilə üzləşən yerli məhsulların qeydiyyatını aparır. Hazırda bu kataloqa Azərbaycandan 31 məhsul daxil edilib.

Təqdimat zamanı qonaqlar unikal təamları dadmaqla yanaşı, istehsalçılar və alyansa üzv olan aşpazlarla bilavasitə tanış olma imkanı da qazanıblar.

Keyfiyyətli, təmiz və ədalətli qida prinsipinə əsaslanan menyunun tərtibatçıları "Slou Fud" Aşpazlar Alyansının üzvləri Orxan Muxtarov və Əbülfəz Həbibovdur. Hazırda bioloji müxtəlifliyi qoruyan və ədalətli qida istehsalçılarını dəstəkləyən beynəlxalq aşpazlar şəbəkəsi olan alyansa 400-dən artıq aşpaz daxildir və onların da 9-u Azərbaycandan olan nümayəndələrdir.

Qeyd edək ki, Avropa İttifaqı tərəfindən maliyyələşən "COVCHEG" (Böyük Qafqaz Dağlıq ərazilərində icma əsaslı dəyər zəncirinin genişləndirilməsi) layihəsi Beynəlxalq Slou Fud Assosiasiyası və Azərbaycan Turizm Bürosu tərəfindən həyata keçirilir. Layihənin məqsədi kənd yerlərinin balanslı inkişafına dəstək olmaq, dayanıqlı qida sisteminə töhfə vermək, yerli və regional qida zəncirlərini, həmçinin "Slou Fud" səyahət proqramı modellərini təbliğ etməkdir. Layihənin pilot ərazisi Şəki-Zaqatala və Dağlıq Şirvan iqtisadi regionuna daxil olan 5 rayonu – Şamaxı, İsmayıllı, Qəbələ, Şəki və Qaxı əhatə edir.

"Slou Fud" (Slow Food – "yavaş yemək") dadlı, təmiz və sosial ədalətlilik prinsiplərinə əsaslanan daha sağlam qidalanmanı təmin edən, milli və regional mətbəxlərin ənənələrini qoruyub saxlayan bir yanaşmadır.

# "Mənim düşüncəm" müsabiqəsinə qeydiyyat davam edir

Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı və Naxçıvan Rəssamlar Birliyinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Mənim düşüncəm – 2021" adlı respublika uşaq rəsm müsabiqəsi davam edir.

"Nizami Gəncəvi İli" çərçivəsində təşkil edilən müsabiqə rəssamlıq istedadı olan uşaq və gənclərin (yaşı 21-ə qədər) yay tətilində təsviri sənət bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır.




Xətai Sənət Mərkəzindən bildirilib ki, uşaq və gənclər çəkdiyi rəsmin fotosunu, əsərin adını, müəllifin adı, soyadı, təvəllüdü, təhsil aldığı məktəbi və əlaqə nömrəsini oktyabr ayının 10-dək Xətai Sənət Mərkəzinin "Facebook" qrupuna yerləşdirməklə müsabiqəyə qatıla bilərlər. Hər iştirakçı ən çox 2 əsər göndərə bilər.

Seçim 3 yaş kateqoriyası (11 yaşa qədər, 11-16 yaş, 16-21 yaş) üzrə aparılacaq və hər yaş kateqoriyası üzrə ayrıca sərgi keçiriləcək.

Birinci turdan keçmiş müəlliflərin əsərləri sərgidə nümayiş olunmaq üçün Xətai Sənət Mərkəzinə dəvət ediləcək.

№63 (1840)
25 avqust 2021
www.medeniyyet.az

# Bizim Vüsalın vüsalı

O, igidliyi, mərdliyi, dürüstlüyü ilə təkcə bir ailənin, bir nəslin yox, bir xalqın, bir ulusun Vüsalına çevrilə bildi. Ailəsinin, bütünlükdə nəslinin yeganə soy davamçısı olan Vüsal şəhadəti ilə neçə-neçə nəslə, doğulacaq daha neçə-neçə Vüsala igidlik, vətənsevərlik, əsl kişilik məqamının, şəhadətlə səadətə qovuşmağın vüsalından "danışdı".



32 yaşlı bu güləruz, nikbin, həyatsevər şəhidimizi xatırladıqca istər-istəməz hamımızın gözləri dolur. Sonra tez özümüzü yığışdırır, onun döyüşlərə yola düşərkən anasına verdiyi ciddi "Ağlama ha, ağlama! Ağlasan, məndən incimə!" tapşırığını xatırlayır və kiriyirik. Çünki o, ölümə dik baxaraq getmişdi Vətən torpağını, doğulduğu Qubadlını azad etməyə. Deməli, yaşamağı, həyatı çox sevsə də, ən böyük arzusuna, ən müqəddəs amalına, ən böyük vüsalına – şəhadətinə gülə-gülə, ürəklə, necə deyərlər, toy-bayramla getmişdi.

Onun Sumqayıtdan cəbhəyə yollanarkən avtobusun pəncərəsindən boylanan gülümsər üzü, zəfər işarəsi verən əli və anasına "Ağlama ha, ağlama!" tapşırıqlı qısa videosu sosial şəbəkələrə ildırım kimi düşdü. Hamı o kadrları paylaşıb Vətən müharibəsi igidinə uğurlar dilədi, ondan qələbə müjdəsi istədi. Beləcə, sentyabrın 30-da döyüşə yollanan hamımızın sevimli qəhrəmanı Vüsal Allahverdiyev oktyabrın 30-da şəhadətə ucaldı, yeni vüsalına yetdi...

Vüsal Tahir oğlu Allahverdiyev 16 avqust 1988-ci ildə Qubadlı rayonunda anadan olmuşdu. 5 yaşından taleyinə məcburi köçkünlük yazılan, Qubadlıdan Sumqayıta köç edən Vüsal Vətənə sevgi, düşmənə nifrət ruhunda formalaşmışdı. Atasının, əmisi və dayısının Birinci Qarabağ müharibəsi iştirakçısı olmaları, evlərində hər zaman Qarabağ, Qubadlı həsrəti söhbətlərin aparılması onu da uşaqlıq yaddaşında ilişib qalan doğma el-obasına səsləyirdi.

9-cu sinfə qədər Sumqayıt şəhər 23 nömrəli tam orta məktəbdə, 10-11-ci sinfi isə şəhərdə yerləşən Qubadlı şəhər 2 nömrəli tam orta məktəbdə oxuyub. 2010-cu ildə Kooperasiya Universitetinin Maliyyə-kredit və mühasibat uçotu fakültəsini bitirdikdən sonra hərbi xidmətə yollanır, əsgəri borcunu Gəncədə ödəyir. Hərbi xidmətdən qayıtdıqdan sonra bank sektorunda çalışmağa başlayır.

İstər işində, istərsə də dostları arasında böyük rəğbət qazanan Vüsal torpaqlarımızın işğalına qarşı barışmaz mövqeyini ortaya qoyur, tez-tez "Müharibə başlayan kimi ön sırada mən gedəcəm, Qubadlıya bayraq sancacam" deyib döyüş əmrinin verilməsini gözləyirdi. Xüsusən 2020-ci ilin iyulunda düşmənin Tovuz istiqamətində törətdiyi təxribatlardan sonra özünə yer tapmayaraq, dəfələrlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt və Qubadlı bölmələrinə gedir, könüllü olaraq ordu sıralarına yazılmaq istədiyini israrla tələb edir.

Ona "Sən nəinki evin, nəslinizin tək oğlan övladısan, getmə" söyləyənlərə də bərk qəzəblənərək "Bu nə sözdür? Qardaşlar gedib mənim rayonumun, doğulduğum torpağın işğaldan azad olunması üçün döyüşəcək, şəhid olacaq, mən də tamaşa edəcəm?! Başa düşün, mən cəbhəyə getməsəm, camaat arasına çıxa bilmərəm!" deyirdi.

Nəhayət, istəyinə çatır və cəbhəyə yollanır. Cəbrayıl, Hadrut istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edir. Yaralı komandirini güllə yağışından xilas edir. Füzuli, Xocavənd uğrunda ağır əməliyyatlarda da cəsarət nümayiş etdirir. Bir neçə döyüşçü yoldaşını mühasirədən çıxarır. "Mütləq qalib gələcəyik" deyib daim irəli can atır...

Vüsalın xüsusi bir millət, bayraq sevgisi də var idi. Otağını tarixi kitablar, dövlət rəmzləri, bayraqlarla bəzəmişdi. Cəbhəyə yola düşərkən də ən böyük bayrağını özü ilə götürmüşdü.

Ən böyük arzusu Qubadlıya bayraq sancmaq, oradakı evlərini tapmaq və valideynlərinə doğulduğu evdən zəng eləmək idi. Amma təəssüf ki, o, bu istəyinə yetə bilmir. Füzuli, Xocavənd istiqamətində həyata keçirilən hücum zamanı şəhadətə ucalır. Sumqayıt şəhər Şəhidlər xiyabanında torpağa tapşırılır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Vüsal Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Vüsalın əziz xatirəsi və gülümsər çöhrəsi uzun illər gözlərimiz önündən getməyəcək və biz Vətəni alınmaz qalaya çevirən bu oğullar sayəsində qalib vətəndaş olmağın səadətini yaşayacağıq. Onun arzuladığı kimi: nikbin, qürurlu və şən...

**Həmidə NİZAMİQIZI**

# Misir qəzetində Natəvana həsr olunmuş məqalə

Misirin "Əl Əhram" qəzetində jurnalist Mahmud Diabın "Qafqazda zülməti aydınladan xanım" sərlövhəli məqaləsi dərc edilib.

Məqalədə adının mənasının "Günəş şüası" olduğu Xurşudbanu Natəvanın (1832–1897) ədəbiyyata və elmə verdiyi töhfələrin Qafqazda bir nur kimi qaranlıqları aydınlatdığı vurğulanır. Müəllif qeyd edir ki, şairə Natəvan Azərbaycanın Qarabağ torpağının dünya mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlərdən biridir.

Diqqətə çatdırılır ki, Qarabağın hökmdarı İbrahimxəlil xanın nəvəsi Xurşudbanu Natəvan hələ uşaqlıq illərində dünyəvi elmləri, ərəb və fars dillərini öyrənib, klassik poeziyanın incəliklərinə yiyələnib. O, Şuşada ədəbi məclislər təşkil edib, həmçinin xeyriyyəçiliklə məşğul olub. O dövrdə rusca nəşr olunan "Kavkaz" qəzetində bu nəcib xanımın kasıblara əl tutması, Şuşaya su çəkdirməsi barədə yazılar dərc edilmişdi. "Xan qızı Natəvan sarayı" və "Xan qızı Natəvan bulağı" qədim Şuşanın bəzəyi olub. Poeziya ilə yanaşı, Natəvan təsviri sənət və musiqi istedadına da malik olub.

Müəllif Natəvanın həyatının Tiflis, Dağıstan dövrlərindən də bəhs edib. Xan qızının dəfn edildiyi Ağdama səfər etmiş M.Diab diqqətə çatdırıb ki, onun qəbrinin olduğu İmarət qəbiristanlığı, buradakı türbənin önündəki büstü erməni işğalçıları tərəfindən dağıdılıb. O əlavə edib ki, Şuşa şəhərinin işğaldan azad edilməsindən sonra qəsbkarların dağıtdığı "Xan qızı" bulağı qısa müddətdə bərpa olunub. Jurnalist məqalədə Şuşa azad olunandan sonra doğma şəhərə qaytarılan məşhur "güllələnmiş abidələr"dən biri – Natəvanın büstü haqqında da bəhs edib.

# Türk dünyasında həmrəylik zamanla daha güclü olacaq

## Professor Kamil Aydın: "Güclü iqtisadiyyat, hərb, elm, təhsil, ürfan, mədəniyyət və müdrik diplomatiyanın vəhdəti bizi qüdrətli edə bilər"

Türkiyə Böyük Millət Məclisinin (TBMM) Ərzurumdan millət vəkili, Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədr müavini Kamil Aydın böyük siyasətə mədəniyyət və dilçilik sahəsindən gəlib. "Türk obrazları Qərb ədəbiyyatında" mövzusunda doktorluq dissertasiyasını İngiltərədə müdafiə edib. Həm siyasətçi, həm də elm adamı kimi həmsöhbətimiz dövlətin qüdrətini iqtisadiyyatın, hərbin gücü ilə yanaşı, elmin, təhsilin, ürfanın, mədəniyyətin və müdrik diplomatiyanın vəhdətində görür. Bu səbəbdən də dilçiliyi, ümumilikdə elmi, yüksək mədəniyyəti və siyasəti bir arada dəyərləndirir. Söhbətə elə dil mövzusundan körpü saldıq.

*– Kamil bəy, ləhcəniz Azərbaycan türkcəsinə bənzəyir. Azərbaycan əsilliyiniz varmı?*

– Ərzurumda danışılan türkcə mənim anamın türkcəsidir. Zatən bu türkcə Bakıdan Naxçıvan, İğdır, Ərzurum, Kərkükə qədər işlənən türkcə, Anadolu və Oğuz türkcəsidir. Mən İngiltərədə dil üzrə doktorluq dissertasiyasını müdafiə etdim. Orada əslən Cənubi Azərbaycandan olan Eyyub adlı bir dostum vardı, biz öz aramızda danışanda istanbullular deyərdi, sən azəricə də bilirsən. Mən deyirdim ki, "azəricə" deyə bir dil yoxdur, bu bizim öz ana dilimizdir. Hər zaman bu ifadənin əleyhinə oluram və bu, vaxtilə Rusiyadan, İrandan Azərbaycan türklərinə edilən həqarətdir. Məsələn, anam "evet" yerinə "bəli" deyərdi. Mən 1991-ci ildə Bosniya və Herseqovinada savaş zamanı İngiltərədə həyat yoldaşımla bərabər könüllü olaraq ailələrə yardım işində çalışmışdım. Orda Bosniyadan olan ailələrlə biz türkcə danışırdıq. Təxminən bir ay öncə də Moldovada oldum, qaqauz türkləri ilə görüşdüm və onlarla da türkcə danışdıq. Azəri, qazax, qırğız deyib, ayırmaqla türk dilinin birliyini pozurlar.

*– Türk birliyindən söz düşmüşkən, Azərbaycanın 44 günlük Qarabağ savaşında Türkiyə bizim yanımızda oldu, digər türk dövlətlərinə gəlincə, sadəcə, bəzi bəyanatlar oldu. Bu barədə düşüncəniz nədir?*

– Elədir, onlar da Azərbaycanla həmrəy oldular, sadəcə, bunu şifahi şəkildə ifadə elədilər. Bundan əlavə, Türk Şurası, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) da bəyanatlar yaydı. Təbii ki, verilən dəstək Türkiyə qədər olmadı. Amma mən əminəm ki, bu həmrəylik zamanla daha güclü olacaq.

1991-ci ildə Sovet İttifaqı dağılanda Qazaxıstan, Qırğızıstan türklərinə "türk" olduqlarını deyəndə bunu birmənalı qarşılamırdılar, buna etiraz edənlər də olurdu. Amma sonralar bir qazaxıstanlı səfir dedi ki, o zaman sizə qəzəblənirdim, amma indi mənə qazax deyib, türk deməyəndə qəzəblənirəm. Digər tərəfdən, Azərbaycan bizə yaxın olduğu üçün əlaqələrimiz daha asan quruldu. Sovet dönəmində İqdırdan əl edəndə Naxçıvandan səsiniz gəlirdi. Türkiyə ilə əlaqələrinizi heç kəsmədiniz. Amma digər türkdilli respublikalar bizdən coğrafi baxımdan uzaqdırlar. Deyim ki, bu məsələdə çox ümidliyəm. Zamanla digər türk respublikaları ilə əlaqələrimiz Azərbaycanla olduğu kimi olacaq.



Mən həm partiyamızda xarici əlaqələr üzrə şöbəyə rəhbərlik edirəm, həm də TBMM-də Xarici siyasət komissiyasının üzvüyəm. AŞPA, ATƏT, NATO tədbirlərində iştirak edirəm. Onu da deyim ki, sayca da çox deyilik. Avropa Şurasında 47 ölkə var, türkdilli ölkələrdən yalnız Türkiyə və Azərbaycandır.

*– 45-ə qarşı 2, sizcə, çətin deyil?*

– Əlbəttə, çox çətindir. AŞPA-da bir hesabatda Azərbaycanı ermənilərə qarşı təhdidlərdə ittiham edirdilər. Bir italyan deputat dedi ki, biz təbii olaraq Ermənistanı müdafiə edəcəyik, çünki Ermənistan xristian dövlətdir. Qorxunc bir mövqedir. Doğrudur, Türkiyə ilə, yaxud Azərbaycanla bağlı bir hesabat olanda qarşılıqlı olaraq bir-birimizə dəstək veririk. AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, Türkiyə nümayəndə heyətinin rəhbəri də Akif Çağatay Kılıcdır. AŞPA-nın iclaslarında hər zaman həmrəyik. Çox hücumlarla qarşı-qarşıyayıq. Qarabağ zəfərindən sonra davamlı olaraq Azərbaycan gündəm olur. Niyə? Çünki Fransada, İtaliyada, digər ölkələrin cəmiyyətlərində ermənilər sayca bizdən çox olmasalar da, nüfuzlu yerlərdədirlər, bələdiyyə başqanı, həkim, müəllim. Bəzən Fransa parlamentində ermənilər güclüdürlər, deyilir. Amma əslində onlar güclü deyil, bizimkilər gücsüzdür. Bizimkilər hələ yeni-yeni bir arada toplanırlar. Amerikada Türkiyə türkləri ilə Azərbaycan türklərini bir araya gətirdik. Buna tədricən qazaxıstanlı, qırğızıstanlı, digər türklər də qatılacaq. Ona görə xaricdəki toplantılarda bir qırğız, bir qazax görəndə bir-birimizə çox doğma oluruq.

*– Türk dünyası və Turançılıq konsepsiyasına yanaşmanız necədir? Yəni bunu siyasi, yoxsa coğrafi olaraq qəbul etmək lazımdır?*

– Türk dünyasına bəzən bir az da siyasi anlamda Turan konsepsiyası da deyilir. Amma bunu sadəcə coğrafiya ilə əlaqələndirməmək doğru deyil. Biz deyirik ki, dünya coğrafiyasının harasında bir türk yaşayırsa o bizim qardaşımızdır, dərdi dərdimiz, sevinci sevincimiz, kədəri kədərimizdir. Biz belə düşünmək məcburiyyətindəyik. "Pantürkizm", "Panturanizm" ideyası yanlışdır və bu, azsaylı türk xalqlarına – Qaqauz, Krım, Qaraçay, Balkar türklərinə və digərlərinə zərər verə bilər. Bu kimi ideyaları əsas tutaraq birliyimizə nail olmaq mümkün deyil. Mən siyasətə dilçilik və mədəniyyət sahəsindən gəlmişəm və bilirəm ki, dünyada ən çox danışılan dillər arasında türk dili 5-ci yerdədir. Bu mənada bizim dil birliyimiz, mənəvi birliyimiz olmalıdır. İngiltərə Brexitdə dedi ki, mənim Avropa İttifaqına ehtiyacım yoxdur, çünki arxasında ingilisdilli Amerika, Kanada var, ingiliscə danışan icmalar var, bir çox təşkilatlar var. Bizim müxtəlif ölkələrlə əməkdaşlığımız həm beynəlxalq, həm də regional müstəvidə ola bilər. Qarabağ zəfərindən sonra Türkiyə olaraq regional problemlərin həlli üçün altılı bir platforma təklif etdik. Yəni bizim birliyimiz türkçülük, müsəlmançılıq qruplaşması kimi anlaşılmamalıdır. Antalya Diplomatiya Forumunda da dedim ki, münaqişə Ermənistanla Azərbaycan arasındadırsa, BMT-yə, Avropa Şurasına, ATƏT-in Minsk Qrupuna ehtiyac yoxdur. Ermənistan öz gələcəyi ilə bağlı özü qərar verməlidir, qonşuluq münasibətlərində, xüsusilə Azərbaycanla olan probleminin həllində kənardan verilən ağıla uymamalıdır. Ermənistan rəhbərliyinin ağlı varsa, özü-özünü saldığı təcrid vəziyyətindən çıxara bilər. Diasporundan, lobbilərdən ağıl almadan, bölgədə qonşuluq münasibətlərini bərpa etməlidir. Yəni problem hardadırsa, onu region dövlətləri ilə çözmək lazımdır. Bunu Fransaya, Amerikaya, digər kənar dövlətlərə həvalə etməklə nəyə nail olundu? 29 il gözlədik, kənar ölkələr nəyi həll etdilər, Qarabağı işğaldan qurtardılarmı? Bir milyon insan didərgin düşmüşdü, amma onlar zaman qazanırdılar.

İndiki şəraitdə Ermənistan rəhbərliyi Zəngəzur dəhlizinə "bəli" desə, erməni xalqı da yoxsulluqdan xilas ola bilər. Onu da deyim ki, Zəngəzur təkcə Türk dünyasının deyil, həm də region dövlətlərinin, Asiya ilə Avropanın nəqliyyat boğazıdır. Odur ki, Ermənistan da daxil region ölkələri bir araya gəlməlidir.

*– Amma Ermənistan hələ də atəşkəsi pozur...*

– Bu onlara xas davranışdır. Yüz il öncə də fürsət tapan kimi hücum edirdilər, indi də. Amma Azərbaycan möhtəşəm bir Zəfər qazandı. Bütün dünyanı qarşımıza alıb onların otuz il işğal edib sahibləndiklərini geri almışıq, iqtisadiyyatlarını, siyasətlərini alt-üst etmişik. Ona görə hiddətlidirlər. Məncə, qələbə çalan bu təxribatlara getməməli, təmkinli olmalı və qətiyyəti əldən verməməlidir. Biz Qarabağı bərpa etməli, abadlaşdırmalıyıq. Yalnız siyasət deyil, elm, ürfan, təhsil, mədəniyyət, iqtisadiyyat – hamısını bir arada birləşdirdikdə biz güc ola bilərik və hər şey gücə bağlıdır.

*– Qarabağ Zəfərində Türkiyə diplomatiyasının rolu ilə bağlı fikirlərinizi də bilmək maraqlı olardı.*

– Bu Qələbə Azərbaycan Ordusunun rəşadəti, prezidentlərimiz cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın düzgün siyasətinin uğuru nəticəsində mümkün oldu. Türkiyə ilə Rusiyanın S-400 anlaşmaları, Suriya mövzusunda razılaşmalar və Paşinyanın təxribatçı, eyni zamanda Rusiyanı da razı salmayan amerikanpərəstliyi və digər bir sıra amillər bir arada bu diplomatik fəaliyyət fürsəti verdi. Rusiya da baxdı ki, Ermənistan din ortağı olsa da, siyasətdə bizimlə eyni mövqedə olması ona daha faydalıdır. Rusiya bizim əleyhimizə olsaydı, bu Qələbə asan olmazdı. Əlbəttə, bu tarixi Zəfər 44 günlük savaşda, hərb meydanında möhtəşəm qələbə ilə diplomatik cəbhədəki uğurun vəhdəti sayəsində mümkün oldu.

**Mehparə SULTANOVA**
**Ankara**

# Lələtəpə Neolit dövrü yaşayış yerində yeni tapıntılar

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Eneolit və İlk Tunc dövrü arxeologiyası şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Xəqani Alməmmədovun rəhbəri olduğu ekspedisiyanın Füzuli rayonunun Horadiz kəndinin inzibati ərazisinə daxil olan Lələtəpə Neolit dövrü yaşayış yerində apardığı tədqiqatların ilkin nəticələri açıqlanıb.

İnstitutdan bildirilib ki, arxeoloji abidə 2016-cı ilin aprelində Azərbaycan Ordusunun düşmən işğalından azad etdiyi Lələtəpə yüksəkliyinin daxil olduğu ərazidə yerləşir. Hündürlüyü 6,4 metr, sahəsi 0,9 hektar olan təpə formalı qədim yaşayış yerinin səthi 2019-cu ildə "Qarabağ Neolit-Eneolit ekspedisiyası" tərəfindən qeydiyyata alınıb. 2020-ci ildə başlanan arxeoloji qazıntılar bu il də davam etdirilib.

Hər biri 16 kvadratmetr olan dörd sahədə aparılan qazıntı zamanı e.ə. əvvəl VI minilliyin I yarısına aid oval, dairəvi və düzbucaqlı quruluşda çiy kərpicdən 3 tikinti qalığı və həyətin divarının bir hissəsi aşkar edilib. Yaşayış üçün istifadə edilmiş tikili qalığının müxtəlif səviyyələrdə üç döşəməsi müəyyənləşdirilib ki, bu döşəmələr də oxra (təbii mineral qırmızı boya) əlavə edilmiş palçıqla suvanıb. Buradan iki təsərrüfat küpü, daşdan və sümükdən müxtəlif təyinatlı alətlər, ocaq qalıqları aşkarlanıb. Tikili qalığının üçüncü döşəməsinin altında bükülü halda dəfn edilmiş uşaq skeletinə təsadüf edilib.

Abidənin ən maraqlı cəhəti məzarlıqla bağlıdır. Cənubi Qafqazın tədqiqata cəlb edilmiş bir çox Neolit dövrü abidəsində ayrı-ayrılıqda insan qəbirləri və bir qəbirdə kütləvi dəfn (Menteştəpə, Tovuz rayonu) aşkar olunsa da, insanların müəyyən oturuşmuş ayinlərin icra edildiyi məkanda – məzarlıqda dəfn edilməsi adətinə ilk dəfə təsadüf olunur. Təmizlənmiş qəbirlərdən 14 skelet aşkar edilib. Skeletlər oval quruluşlu xüsusi dəfn kamerasında-çalada aşkarlanıb. Qəbirlərdə insanlar tək və qoşa olmaqla sıx bükülü vəziyyətdə, müxtəlif istiqamətdə dəfn edilib. Dəfn olunan insanların yanında pasta, malaxit və daş muncuqlar, sümükdən hazırlanmış bəzək əşyaları və əsabaşı (skipetr) aşkarlanıb.

Xəqani Alməmmədov bildirib ki, məzarlıqdan aşkar edilmiş skeletlərdən götürülmüş nümunələrin Hacettepe Universitetinin (Türkiyə) "Antik DNT laboratoriyası"nda analizləri aparılaraq bu insanların genetik bağlılıqları, irsi və bakterioloji xəstəlikləri və qida rasionları öyrəniləcək. Aparılacaq DNT çalışmaları ümumilikdə Neolit dövründə Qarabağ ərazisində baş vermiş etnik-



mədəni dəyişikliklər və xüsusən də Cənubi Qafqazda erkən istehsal münasibətlərinin təşəkkülündə etnik və ya mədəni miqrasiyanın rolunun öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda bu nümunələr əsasında abidənin radiokarbon tarixlənməsi də veriləcək.

Qeyd edək ki, Neolit dövründə Azərbaycan ərazisində Şomutəpə arxeoloji mədəniyyəti ilə yanaşı mövcud olan Qarabağ arxeoloji Neolit mədəniyyəti dünya elmi dairələrinin diqqətindədir. Bu baxımdan Lələtəpə qədim yaşayış yeri arxeologiya üçün böyük maraq kəsb edir.

# Nəvvabın rənglər dünyası

Mir Möhsün Nəvvabın (1833–1918) milli klassik bədii ənənələrə bağlı olan yaradıcılığı Azərbaycan təsviri sənət tarixinin unudulmaz səhifələrindən birini təşkil edir. Onun monumental və dekorativ sənət, dəzgah və kitab qrafikası sahəsində yaratdığı süjetli kompozisiyalar özünəməxsus məziyyətləri ilə seçilir. Monumental səpkili işləri Şuşadakı Yuxarı Gövhər ağa məscidinin minarələrini, öz evinin və dərs dediyi binanın divarlarını bəzəyirdi. Bizim dövrümüzə onların müəyyən hissəsi gəlib çatmışdır. Şuşanın erməni işğalında olduğu illərdə bu nümunələr də vandalizm və talana məruz qalmışdır...



AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun fondlarında qorunan Mir Möhsün Nəvvab ünvanlı əlyazmalarındakı miniatürlər özünəməxsusluğu ilə diqqəti cəlb edir. Bu mənada Firdovsinin 1849-1850-ci illərdə Tehranda litoqrafiya üsulu ilə çap olunmuş "Şahnamə"sinə çəkilmiş rəsmlərini Nəvvabın bizim dövrə gəlib çatmış ilk yaradıcılıq nümunələri saymaq olar. Sayı 57-yə çatan bu miniatürlərdə onun təsvirlərə emosionallıq, ifadəlilik gətirən dəyişkən xarakter və kolorit yaratmaq bacarığını qeyd etmək lazımdır. "Rüstəm Çin xaqanını fildən aşırır" əsəri dediyimiz məziyyətləri özündə yaşadır. Qəhvəyi yerliyin fonunda baş verən qarşıdurmaya Rüstəmin atının qırmızı, xaqanın mindiyi filin ağ rəngləri, eləcə də döyüşənlərin çəhrayı-bənövşəyi rəngli geyimləri duyulası dinamika və ekspressiya bəxş etmişdir.

Digər rəsmlərdə də rəssam təzadlı rəng çaları ilə kompozisiyaların bədii-estetik təsir gücünü xeyli artırmışdır. Lakin nədənsə "Şahnamə"nin tədqiqatçıları bu kitabı bəzəyən və haradasa onun ümumi tərtibatını zənginləşdirən 10-dək rəsm əsərini nəzərdən qaçırmışdır. "Şahnamə" daş çapı məhsulu olmasına baxmayaraq, Nəvvab onun cildindən başlamış səhifələrindəki ən kiçik bəzək elementlərinə kimi özünəməxsus əlavələr etmiş, kitabın tərtibatına tamlıq, dolğunluq bəxş etmişdir. Bu mənada kitabın cildinin, frontispisinin, eləcə də ayrı-ayrı səhifələrinin bədii tərtibatında nəbati elementlərdən – müxtəlif gül-çiçəklərdən, xüsusilə də qızılgüllə payızgülünün vəhdətindən geniş istifadə olunmuşdur.

Əlyazmalar İnstitutunda Nəvvabın hazırladığı "Bəhrül-hüzən" (1864–1865) adlı əlyazması da özünəməxsus bədii tərtibatına görə diqqət çəkir. Kərbəlada baş verən hadisələri və imamların taleyini əhatə edən bu poetik əsərin əlyazmasının bədii tərtibatçısı, xəttatı və rəssamı onun özüdür. Burada mövzunu əyaniləşdirən beş illüstrasiya var. Bu əsərlər Nəvvabın Firdovsinin "Şahnamə"sinə çəkdiyi rəsmlərdən 15 il sonra yaranmışdır. "Şahnamə" motivlərinə özünəməxsusluq verən, bir çox hallarda Mirzə Əliqulunun dəqiqliklə çəkilmiş rəsmləri ilə səsləşən, uyuşan bədii şərhdən fərqli olaraq, o, həmin əsərlərə primitiv sənət ənənələrini xatırladan sadəlik bəxş etmişdir.

Nəvvabın uzaq keçmişin indiyə qədər unudulmayan hadisələrini yaşayıb-yaratdığı mühitin milli-etnoqrafik süzgəcindən keçirdiyi hər bir əsərdə hiss olunur. Bunu ayrı-ayrı lövhələri təşkil edən müxtəlif atributların bədii şərhində də görmək mümkündür. Heç şübhəsiz, bunu rəssam olub-keçənlərə şəxsi münasibətinin təzahürü hesab etmək olar.

Nəvvabın sənət aləminə bəlli olmayan üç əsəri 1895-ci ildə yazılmış "Kəşfül-həqiqeyi-məsnəvi" adlı əlyazmasının tərtibatının əsasını təşkil edir. Başqa əsərləri kimi bu əlyazmanı da nəfis xətlə özü yazmışdır. Mənəvi, etik və didaktik problemlərə həsr olunmuş kitab şeirlə yazılıb. Burada rəssamın eşidib-gördüklərinin nəsihətə, zərb-məsələ çevrilmiş məqamlarının poetik şərhini onun sulu boya ilə çəkdiyi rəsmləri obrazlı şəkildə tamamlayır. Onlar Nəvvabın məhəbbətə, pis əməl sahibinə, xainliyə münasibətini gözəl əks etdirir.

Dini tutumlu "Bəhrül-hüzən" ("Qəm dəryası") əsərindən səkkiz il sonra Nəvvab yenidən bu nəhayətsiz mənəvi dünyanın həmişəyaşar və əqidə uğrunda canını əsirgəməmək nümunəsi ola biləcək Aşura mərasiminə müraciət edib. Amma bu əsərlər süjetinə görə fərqlidir. Əgər "Bəhrül-hüzən"lə bağlı rəsmlərdə Aşuranın yaranması əks olunubsa, Nəvvabın diptixində Aşuraya, onu qanı bahasına yaradanların xatirəsinə ehtiram göstərilib. Rəssamın bilavasitə şəxsi müşahidələri əsasında yaradılan bu əsərin "Şuşada Aşura mərasimi" adlanması da elə buna bir işarədir. Hadisəni bütün zənginliyi ilə təqdim etmək üçün rəssam diptix kompozisiya formasından istifadə etmişdir. Mövzu kağız üzərində sulu boya ilə çəkilmiş eyni ölçülü iki kompozisiyada əksini tapıb. Onların hər birində yüzdən çox obraz vardır.

Nəvvabın "Şuşada Aşura mərasimi" diptixi ilə yanaşı dəzgah qrafikası sahəsində yaratdığı əsərlərinin bir qismi Azərbaycan Milli İncəsənət Muzeyində nümayiş etdirilir. Həmin lövhələrin birində Türk dünyasının böyük sərkərdələrindən Teymurləng təsvir olunub. Sulu boya ilə işlənmiş portretin (1902) ümumi kompozisiya həlli oval formalıdır. Real səpkili əsər bədii həllinə görə o dövrdə Şərq rəssamlığına dərin nüfuz etmiş Avropa bədii ənənələrini xatırladır. Rəssam Teymurləngin obrazını təxəyyülünün və fantaziyasının gücü ilə özünəməxsus təsvir dilinə çevirmişdir.



Rəssamın nəbati motivlərdən uğurla istifadə etdiyi kompozisiyalardan biri də Azərbaycan Milli İncəsənət Muzeyində nümayiş etdirilən "Güllər" (1874) əsəridir. Tempera ilə işlənmiş bu kompozisiyada müəllif iri və kiçikölçülü güllərin simmetrik düzülüşündən bacarıqla istifadə etmişdir. Uğurlu işıq-kölgə həlli yuxarıda və aşağıda yerləşdirilmiş pionların, kompozisiyaya rəngarənglik gətirən bənövşə və sabahgülünün forma-biçimini, xırda ləçəklərinin duyulanlığını şərtləndirmişdir.



Mir Möhsün Nəvvabın monumental rəssamlıq sahəsində işləri də özünəməxsusluğu, fərqli bədii məziyyətləri ilə diqqəti cəlb edir. Onun bu sahədə yaradıcılığını əyaniləşdirən nümunələr, əsasən, 1886-cı ildən ta ömrünün axırına kimi yaşadığı evin (Şuşa şəhəri, Nəvvab küçəsi) tərtibatı ilə bağlı olmuşdur. Rəssamın nəvəsi Şamil Sadıqovun xatirələrinə görə, Nəvvab 1886-cı ilə qədər sonralar yaşadığı evə bitişik qonşu həyətdəki ikimərtəbəli binada yaşayıb. Sənətkarın yaşadığı bu evin divarlarını Füzulidən başlayaraq Vaqifə qədər bir neçə dahi şairimizin ustalıqla çəkilmiş portretləri bəzəyirmiş. 1886-cı ildə ev yararsız hala düşdüyündən Nəvvab köhnə evə bitişik ikimərtəbəli mülkü alıb, onun daxilini öz zövqünə uyğun qaydaya salıb. Hər iki mərtəbədəki otaqların divarlarında, tavanında, qapılarında, hətta divar dolabının qapısında rəssamın öz əli ilə çəkdiyi müxtəlif gül və bülbül təsvirləri olmuşdur.

Mədrəsədə Nəvvabdan dərs almış görkəmli teatr xadimi C.Bağdadbəyovun yazdığına görə, rəssam Şuşadakı Yuxarı Gövhər ağa məscidinə xüsusi yaraşıq verən iki minarənin naxışlarla bəzədilməsində iştirak etmişdir. C.Bağdadbəyovun dediyinə görə, Nəvvabın hücrəsi məscidin həyətində yerləşən binanın ikinci mərtəbəsində idi (həmin bina çoxdan sökülüb). Hücrənin daxili bəzəklərini də Nəvvab incə zövqlə işləmişdi.

Divar rəsmlərinin rəngkarlıq prinsipində rəssam, qədim sənətkarlardan fərqli olaraq, divarı başdan-başa naxışlarla örtmür, səthi təkrarlanan ayrı-ayrı iri kompozisiyalarla bəzəyirmiş. Divar rəsmlərinin əsas motivini çiçək açmış qızılgül kolları və bülbül təsvirləri təşkil edir. Nəvvabın evindəki otaqların divarlarında on iri və bir neçə çiçək, qızılgül kolu ciddi ardıcıllıqla yerləşdirilib. Rəssam adəti üzrə qızılgül kollarından ibarət kompozisiyanın aşağı hissəsini müxtəlif ölçülü butalardan ibarət naxışlarla tamamlayıb.

Otaqları bəzəyən digər motiv süsən və qızılgül dəstəsinin təsvirindən ibarət olub. Süsən gülünün kompozisiyasında və çəkilişində rəssam divar rəsmlərində qəbul edilmiş fotrma-biçimi təkrarlayır, çiçək açmış qönçəli süsən gülünü yelpikli yarpaqların mərkəzindən baş qaldırmış halda təsvir edir. Bir qayda olaraq, rəssamın çəkdiyi süsən güllərinin rəngləri tünd, bədii həlli qrafik xırdaçılıqdan uzaq olub.

Otaqların ensiz ağac hissələrindən ibarət olan taxta tavanın üzəri nəbati naxışlarla bəzədilmiş təmaslarla – lövhələrlə haşiyələnib. Oval formalı hissələrin üzəri çiçək təsvirləri ilə bəzədilib. Divardakı dolabların kənarlarını da enli xətt içərisində yerləşdirilmiş nəbati naxışlar bəzəyib. Naxış örtüyünü açıq-sarı yerlikdə yerləşdirilmiş eyni ölçülü və sadə formalı dörd ləçəkli (ağ, sarı, qırmızı, göy) güllər təşkil edib. Bu cür sadə motivdən divarla tavanın birləşdiyi yeri bəzəyən haşiyənin tərtibatında da istifadə olunub. Bu haşiyələr, eyni zamanda qırmızı xətlərlə əhatələnib.

Qapıların xonçaları və iki divar dolabının qapılarının bəzəkləri kompozisiyasına və rənginə görə otaqların ümumi tərtibatından fərqlənir. Kompozisiyaları təşkil edən gül dəstələri səth üzərində, qədim sənətkarların işlərində olduğu kimi, sərbəst yerləşdirilib. Gül dəstələrinin formasını xonçaların eni müəyyənləşdirib. Orta hissədə güllər uzun, kənar hissələrdə isə dairəyə yaxın kvadrat formalı kompozisiyada yerləşdirilib. Mərkəzi iri, yuxarı və aşağı hissələri isə qönçələrlə tamamlanan kiçik güllər bəzəyir. Bu mütənasiblik rəng həllində də izlənilib, mərkəzdə parlaq və tünd, kənarlarda isə işıqlı tonlardan istifadə edilib. Rənglərin əlaqəsində müəllifin yüksək zövqü duyulur. Güllər səthdə əvvəlcədən hazırlıq aparılmadan sərbəst naxışlarla işlənib.



Bu cür işləmə üsulu Nəvvabı XIX əsrdə Azərbaycanda çalışmış digər müəlliflərdən fərqləndirir. Rəssamın divar rəsmlərinin çəkilişində və rəng həllində onun miniatür üslublu əsərlərinə xas olan xırdaçılıq yoxdur. Divar rəsmlərində süjetli kompozisiyalara da rast gəlinir. Biz onun işlərində yalnız güllərin və quşların, bəzən də stilizə olunmuş naxışların təsvirini görürük.

Nəvvabın hazırladığı xalq sənəti nümunələri forma-biçiminə, bədii tərtibatına görə seçilir. Milli İncəsənət Muzeyində onun öz əli ilə hazırladığı iki rəhil saxlanılır. Onların ümumi quruluşu nisbətən sadələşdirilmiş biçimə malikdir. Elə bu səbəbdən də səthi nəbati naxışlarla örtülmüş bu rəhillər istifadə üçün çox rahat və əlverişlidir.

Muzeydə onun hazırladığı bir qələmdan da nümayiş etdirilir. Düzbucaqlı formalı qələmdanın üzəri istirahət mövzulu süjetlərlə bəzədilib. Şərti olaraq hissəyə bölünmüş şaquli kompozisiyada gəzintiyə çıxmış şuşalı gənclər təsvir olunub. Kompozisiyalara daxil edilmiş memarlıq tikililəri, gənclərin zəngin geyimləri həmin dövrün milli koloritini duymağa kömək edir.

Nəvvabın eyni zamanda xalq tətbiqi sənətinin başqa sahələrində fəaliyyət göstərdiyi də məlumdur. Müasirlərinin xatirələrində qeyd olunur ki, o, neçə-neçə bədii oyma, tikmə, xalçaçılıq çeşnilərinin də müəllifi olmuşdur.

Nəvvab rəssamlıq sahəsində xüsusi təhsil almasa da, hər bir işində təsvir etdiklərinə fərdi münasibətini əks etdirməyə çalışmışdır. Məhz bu cəhətlərinə görə onun bizlərə ərməğan qoyub getdiyi bədii irsi milli mədəniyyətimizin çoxminillik tarixində dəyərli əsərlər kimi yaşayır...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi — 25–27 avqust

### Azərbaycan

**25 avqust 1910** – Əməkdar incəsənət xadimi, rəssam Bəhram Tofiq oğlu Əfəndiyev (1910-1967) anadan olub. Gəncə Dövlət Dram Teatrında baş rəssam işləyib.

**25 avqust 1915** – Əməkdar memar Tahir Abdulla oğlu Abdullayev (1915-2004) anadan olub.

**25 avqust 1926** – Xalq rəssamı Xalidə Ələkbər qızı Səfərova (1926 – 23.12.2005) Gəncədə anadan olub. Yaradıcılığında natürmort, mənzərə, xalq nağıllarına illüstrasiyalar geniş yer tutur: "Dağ çayı", "Aşıq Qərib", "Çövkən oyunu", "Payız bağında" və s.

**25 avqust 1931** – Yazıçı, naşir, Əməkdar mədəniyyət işçisi Əjdər Rza oğlu Xanbabayev (1931 – 30.5.1990) anadan olub. "Azərnəşr"in direktoru olub.

**25 avqust 1935** – Xalq şairi Fikrət Qoca (Fikrət Göyüş oğlu Qocayev; 1935 – 5.5.2021) Ağdaş rayonunun Kotanarx kəndində doğulub. "Təkərlər geri fırlanır", "Yaralı çiçəklər", "Oddan keçənlər" və s. poemaların müəllifidir. Şeirlərinə populyar mahnılar ("Gəl, ey səhər", "Payız gəldi" və s.) bəstələnib.

**25 avqust 1942** – Şair, publisist Davud Məcid oğlu Nəsib Qazax rayonunda (1942 – 26.3.2003) anadan olub. Kitabları: "Ürək sözsüz danışır", "Bizdən sonra yaşayanlar", "Karvan gedir" və s.

**25 avqust 1945** – Əməkdar artist, Dövlət mükafatı laureatı Vəfa Nüsrət qızı Fətullayeva (1945 – 21.5.1987) anadan olub. Akademik Dram Teatrında çalışıb. Televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb. "Firəngiz" filmində (1975) baş rolda çəkilib.

**25 avqust 1948** – Əməkdar artist Faiq Məsim oğlu Qasımov (1948-2017) anadan olub. Gəncə Dövlət Dram Teatrında aktyor və rejissor işləyib.

**25 avqust 1965** – Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Məmməd oğlu Həşimli (1965 – 20.6.2020) Naxçıvan MR Culfa rayonunun Teyvaz kəndində doğulub.

**26 avqust 1892** – İctimai-siyasi xadim, publisist Seyid Cəfər Pişəvəri (1892 – 12.6.1947) Cənubi Azərbaycanın Xalxal mahalının Zeyvə kəndində anadan olub. 1945-1946-cı illərdə İranda azərbaycanlıların milli hərəkatına başçılıq edib, Cənubi Azərbaycan Milli Hökumətinin baş naziri olub.

**26 avqust 1940** – Əməkdar artist, müğənni İdris Saleh oğlu Mehdiyev (1940-2015) Gəncə şəhərində doğulub. Azərbaycan Televiziyası və Radiosu Xorunun solisti və direktoru olub.

**26 avqust 2003** – Xalq artisti, tanınmış aktyor, Dövlət mükafatı laureatı Həsən Ağaməmməd oğlu Məmmədov (22.11.1938 – 2003) vəfat edib. "Gün keçdi", "Yeddi oğul istərəm", "İstintaq", "Axırıncı aşırım" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**27 avqust 1918** – Əməkdar rəssam Ənvər Hacıağa oğlu Almaszadə (1918 – 6.3.2007) Bakıda doğulub. Akademik Opera və Balet Teatrında rəssam (1937-1992) işləyib.

**27 avqust 1921** – Yazıçı-dramaturq Seyfəddin Dağlı (Seyfəddin Əliağa oğlu Abbasov; 1921 – 18.1.1983) Xızıda doğulub. "Adı sənin, dadı mənim", "Aydınlığa doğru" və s. pyeslərin, "Bahar oğlu", "Məşəl" kitablarının müəllifidir. "Kirpi" jurnalının baş redaktoru olub.

**27 avqust 1928** – Əməkdar rəssam Nadir Əlimuxtar oğlu Zeynalov (1928 – 16.3.1987) anadan olub.

**27 avqust 1929** – Əməkdar mədəniyyət işçisi, aktyor, rejissor Məmmədkamal Allahqulu oğlu Kazımov (1929 – 13.12.2005) Bakıda anadan olub. Akademik Dram, Sumqayıt, Ağdam teatrlarında çalışıb, filmlərdə çəkilib.

**27 avqust 1942** – Ərəbşünas alim, akademik Vasim Məmmədəli oğlu Məmmədəliyev (1942 – 13.10.2019) Bakıda anadan olub. "Qurani-Kərim"in Azərbaycan dilinə tərcüməçilərindən biridir. "Ərəb dilçiliyi", "Quran" və elm" və s. monoqrafiyaların, dərsliklərin müəllifidir.

**27 avqust 1998** – Görkəmli kinorejissor, Xalq artisti Tofiq Mehdiqulu oğlu Tağızadə (7.2.1919 – 1998) vəfat edib. Filmləri: "Görüş", "Uzaq sahillərdə", "Arşın mal alan" (1965), "Yeddi oğul istərəm", "Dədə Qorqud", "O dünyadan salam" və s.

### Dünya

**25 avqust 1724** – İngilis rəssamı Corc Stabbs (George Stubbs; 1724-1806) anadan olub.

**25 avqust 1891** – İtalyan yazıçısı, rəssam və bəstəkar Alberto Savinyo (Alberto Savinio – Andrea Di Chirico; 1891-1952) anadan olub. "Niobeyanın ölümü", "Kapitan Uliss" dramlarının müəllifidir.

**25 avqust 1900** – Alman filosofu Fridrix Nitsşe (Friedrich Wilhelm Nietzsche; 15.10. 1844 - 1900) vəfat edib. Əsərləri: "Faciənin doğuluşu", "Bütlərin qürubu", "Antixrist", "Hakimiyyət iradəsi" və s.

**25 avqust 1918** – Amerika bəstəkarı və dirijoru Leonard Bernstayn (1918-1990) anadan olub.

**25 avqust 1930** – Gürcü rejissoru, SSRİ Xalq artisti Georgi Daneliya (1930 – 4.4.2019) anadan olub. Filmləri: "Mən Moskvada addımlayıram", "Afonya", "Mimino", "Payız marafonu", "Kin-dza-dza!" və s.

**25 avqust 1930** – Şotland əsilli Amerika aktyoru Şon Konneri (Thomas Sean Connery; 1930 – 31.10.2020) anadan olub. Ceyms Bond haqqında 6 filmdə baş rola çəkilib. "Toxunulmazlar" (1988) filmində roluna görə "Oskar" mükafatına layiq görülüb.

**26 avqust 1880** – İtalyan-polyak əsilli Fransa şairi Giyom Apolliner (Guillaume Apollinaire – Wilhelm Albert Vladimir Apollinaris de Waz-Kostrowitcki; 1880-1918) anadan olub. Əsərləri: "Həyatı məhəbbətə həsr etmək", "Mirabo körpüsü" və s.

**26 avqust 1913** – Rus yazıçısı Aleksandr Çakovski (1913-1994) anadan olub. "Blokada", "Qələbə" və s. romanların müəllifidir.

**26 avqust 1914** – Argentina yazıçısı və şairi Xulio Kortasar (Julio Florencio Cortazar; 1914-1984) anadan olub. Əsərləri: "Uduş", "Sonuncu raund", "Manuelin kitabı" və s.

**27 avqust 1770** – Alman filosofu Georq Vilhelm Fridrix Hegel (Georg Wilhelm Friedrich Hegel; 1770 - 14.11.1831) anadan olub. Əsərləri: "Ruhun fenomenologiyası", "Məntiq elmi", "Tarixin fəlsəfəsi" və s.

**27 avqust 1856** – Klassik Ukrayna ədəbiyyatının banilərindən biri, yazıçı, şair İvan Franko (1856-1916) anadan olub. Əsərləri: "Kəsişən cığırlar" (roman), "Oğurlanmış xoşbəxtlik" (şeirlər toplusu).

**27 avqust 1871** – Amerika yazıçısı Teodor Drayzer (Theodore Herman Albert Dreiser; 1871 – 28.12.1945) anadan olub. Əsərləri: "Kerri bacı", "Cenni Gerhardt", "Arzular trilogiyası", "Amerika faciəsi", "Dahi" və s.

**27 avqust 1896** – Rus aktrisası, SSRİ Xalq artisti Faina Ranevskaya (Feldman; 1896-1984) anadan olub. Bir müddət (1925-1927, 1929-1931) Bakı İşçi Teatrında çalışıb.

**Hazırladı: Vüqar ORXAN**

## "Mirzə Kazım bəy" sənədli filmi bərpa olunub

Azərbaycan Dövlət Film Fondu tərəfindən "Mirzə Kazım bəy" sənədli filmi bərpa olunub.



1983-cü ildə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında istehsal edilmiş ekran əsəri görkəmli Azərbaycan şərqşünası, maarifçi Mirzə Kazım bəyin (Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu; 1802–1870) həyat və fəaliyyətinə, zəngin elmi irsinə həsr olunub.

Sənədli filmdə şərqşünas alimin Kazan və Sankt-Peterburq universitetlərində fəaliyyətindən ətraflı söz açılır.

Mirzə Kazım bəy Peterburq Universitetini bitirib, Rusiya Elmlər Akademiyasının ilk azərbaycanlı üzvü (1835) olub. 1828-ci ildə Kazan Universitetində yenicə yaranmış Türk dilləri fakültəsinə rəhbər təyin olunan dilçi alim 1839-cu ildə "Türk-tatar dilinin qrammatikası" dərsliyini çap etdirib. 1853-cü ildə Peterburq Universitetində açılan Şərqşünaslıq fakültəsinin dekanı təyin edilib.

Sənədli filmin ssenari müəllifi Ağabala Rzayev, rejissoru və operatoru Zaur Məhərrəmov, bəstəkarı Cavanşir Quliyevdir. Diktor mətnini Hamlet Xanızadə oxuyub.

№63 (1840)
25 avqust 2021
www.medeniyyet.az

# "Bu, həqiqətən də, möcüzədir"

## Rza Diqqəti altı aya ərsəyə gələn Füzuli aeroportu ilə bağlı fotolarını paylaşıb

Azərbaycan əsilli məşhur fotojurnalist Rza Diqqəti (Reza Deqati) Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə bağlı çəkdiyi fotoları "İnstagram" səhifəsində paylaşıb.

O, paylaşımında yazıb: "2020-ci ilin oktyabrından başlayaraq, 1992-ci ildən bəri Qarabağın işğalı dövründə baş verən dağıntıların fotoşəkillərini çəkirəm. Amma hələ yarısını belə çəkə bilməmişəm. Bu arada, demək olar ki, dərhal başlanan yenidənqurma işləri və yeni planlar bölgənin parlaq gələcəyini göstərir.

Əsas manea ermeni qüvvələri tərəfindən qoyulan milyonlarla minadır ki, hətta üçtərəfli müqaviləni (Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin 10 noyabr 2020-ci il tarixli Bəyannaməsi – red.) imzaladıqdan sonra da Ermənistan hökuməti bütün beynəlxalq qanunlara zidd olaraq mülki insanların ölümünə səbəb olan və yenidənqurma işlərini gecikdirən minaların xəritələrini verməkdən imtina edir".



Rza Diqqəti qeyd edir ki, bütün bu maneələrə rəğmən davam edən işlər həqiqətən də, möcüzədir. O, paylaşdığı fotosilsilədə Füzuli aeroportunun tikintisinin 2021-ci ilin fevralında başladığını diqqətə çatdıraraq yazır ki, dünyanın heç bir yerində belə hava limanı bir neçə ay ərzində tikilmir: "Buraya ilk təyyarə sentyabrın 5-də enəcək! Daha çox "Qarabağ İntibahı" hekayələri üçün səhifəni izləməyə davam edin".

Qeyd edək ki, Füzuli Beynəlxalq Hava Limanının təməli 2021-ci il yanvarın 14-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Hava limanının 3 min metr uzunluğunda uçuş-enmə zolağı ən iri təyyarələri belə qəbul edə biləcək.

Avqustun 20-dən başlayaraq hava limanında radiotexniki vasitələrin hazırlığının yoxlanılması üçün xüsusi hava gəmisi ilə uçuşlar həyata keçirilir. Bu barədə "Azərbaycan Hava Yolları" QSC (AZAL) məlumat yayıb. Yoxlama ATR 42-500 biznes sinif təyyarəsinə quraşdırılmış AFİS (Aero Flight İnspection System) uçuş müfəttişliyinin tam avtomatlaşdırılmış kompleksinin tətbiqi ilə həyata keçirilir. AFİS hava limanlarında enmə vasitələrinin və yerüstü radionaviqasiya sistemlərinin yoxlanılması üçün istifadə olunan müasir tam avtomatik uçuş nəzarət sistemidir.

# Malazgird Zəfərinin 950 illiyi qeyd olunur

## Azərbaycan mədəniyyətini tanıdan çadır da qurulub



əvvəli səh. 1-də

Açılış mərasimində Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və Qars şəhərindəki baş konsulu Nuru Quliyev iştirak ediblər. Mərasim iştirakçıları Azərbaycan çadırı ilə maraqla tanış olublar.

Naxçıvan Dövlət Filarmoniyasının "Şuşa" muğam qrupu möhtəşəm ifası ilə Azərbaycan çadırının qurulduğu məkanda canlanma yaradıb. Əməkdar artist, xanəndə Zülfüqar Mahmudovu tarda Sərxan Abdullayev, kamançada Nurlan Nuriyev müşayiət ediblər.

Avqustun 24-də Muş vilayətinin Malazgird ilçəsində rəsmi açılış mərasimi keçirilib. Malazgird Zəfərinin 950 illiyi tədbirlərində pərvaz, uşaq oyunları, oxçular, atlı oxçular, dəri sənəti və s. bölmələr fəaliyyət göstərir.

26 avqust 1071-ci ildə Sultan Alp Arslanın başçılıq etdiyi Səlcuq ordusu ilə Bizans İmperatoru Romen Diogenin qoşunları arasında Malazgird döyüşü baş verib. Alp Arslanın 50 minlik süvari ordusu Bizansın 200 minlik qoşunu üzərində qələbə çalıb.



İmperator Diogen əsir düşüb. Alp Arslan onu bağışlayıb və tərəflər arasında 50 il müddətinə sülh müqaviləsi bağlanıb. Müqaviləyə görə, Bizans hər il Səlcuq dövlətinə vergi verməli, lazım gəldikdə hərbi yardım göstərməli idi.

Zəfər Anadolunun qapılarını əbədi olaraq türklərə açdı. Bu qələbədən sonra oğuz türklərinin Səlcuqlar dövləti Qafqaz-Yaxın Şərq regionunun hegemon gücünə çevrildi. Malazgird döyüşü ümumilikdə dünya tarixində dönüş oldu. Bizans İmperiyasının mövqeləri sarsıldı. Bizansın əsas dayağı olan Kiçik Asiyanın fəthi bu dövlətin zəifləməsində və gələcəkdə dağılmasında böyük rol oynadı.

# ABŞ-dakı yeni səfirimiz həmvətənlərimizlə görüşüb

Azərbaycanın ABŞ-a yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim Nyu-York və ətraf ştatlarda yaşayan həmvətənlərimizlə görüşüb.



Müxtəlif ali təhsil ocaqlarında çalışan və təhsil alan gənclər, ABŞ-da fəaliyyət göstərən dərnək rəhbərləri ilə tanış olan diplomat COVİD-19 pandemiyası dövründə icma üzvlərinin qarşılaşdığı problemlər, ABŞ-a gəliş və gedişlərdə tələb olunan vaksin pasportlarının alınması, vaksinasiya ilə bağlı həmvətənlərimizin qarşılaşdığı müəyyən çətinliklər, pasportların müddətinin uzadılması mövzularında müzakirələr aparıb.

Görüşün keçirildiyi məkanda səyyar konsulluq xidməti göstərilib və konsul Ceyhun Novruzov sənəd problemləri ilə qarşılaşan həmvətənlərimizin müxtəlif mövzularda suallarını cavablandırıb, mövcud problemlərin həlli istiqamətində addımlar atılacağını deyib.

Səfir Xəzər İbrahim yaxın gələcəkdə həmvətənlərimizin daha çox məskunlaşdığı şəhər və ştatlarda səyyar konsulluq xidmətinin fəaliyyətə başlayacağını diqqətə çatdırıb. İcma üzvləri səfiri gələcək planları haqqında məlumatlandırıb, bir çox məsələlər ətrafında qarşılıqlı müzakirələr aparıblar. Bütün mövzularda həmvətənlərimizə dəstək olmağa hazır olduğunu deyən səfir bundan sonra da belə görüşlərin mütəmadi keçiriləcəyini bildirib.

# "Azərbaycana ziyarət"

## Niderland qəzetində ölkəmiz haqqında məqalə

Azərbaycanın Niderland Krallığındakı Səfirliyi 3-4 sentyabr tarixində bu ölkədə keçiriləcək "Səfirliklər Festivalı"nda (Embassy Festival) iştirak edəcək. Festival çərçivəsində niderlandlılar Azərbaycan səfirliyi, mədəniyyəti və mətbəxi ilə yaxından tanış olacaqlar.

Bu fikirlər Niderlandın "De Telegraaf" qəzetində "Azərbaycana ziyarət" adlı məlumat xarakterli məqalədə yer alıb. Məqalədə festival çərçivəsində səfirliyimizin ictimaiyyətə açıq olacağı diqqətə çatdırılır. Qeyd olunur ki, ilk dəfə yerli sakinlər Azərbaycan səfirliyini ziyarət edə biləcək. Onlar səfirlik binası ilə tanış olacaq, dövlət rəmzlərimiz, Azərbaycanın xarici siyasəti, tarixi, mədəniyyəti və musiqisi haqqında məlumat alacaq, milli mətbəximizin nemətlərini dadacaqlar.

Boliviya, Estoniya, Panama və Koreya Respublikasının səfirlikləri də həmin gün ictimaiyyətə açıq olacaq.

Festivalın ikinci günündə Azərbaycan da daxil olmaqla, 20 ölkənin milli mətbəx və mədəniyyət nümunələri Haaqada nümayiş etdiriləcək.

# Türkiyədə Dron festivalı keçirilir

## Ölkənin təbii-mədəni gözəllikləri dron kameraları vasitəsilə tanıdılacaq



Türkiyə Prezident Administrasiyası İctimaiyyətlə əlaqələr idarəsi ölkənin tanıtımı üçün fərqli bir layihəyə imza atıb. Avqustun 23-də başlayan Dron festivalı dünyada bu qəbildən ilk belə yarışmadır.

Avqustun 28-dək davam edəcək festivalda Türkiyə, ABŞ, İngiltərə, Fransa, İspaniya və İsveçrədən 12 professional universal çəkiliş dronları iştirak edir. "FPV drone" (kameralı dronlar) pilotları Türkiyənin ən əhəmiyyətli yerlərini tanıtmaq üçün yarışırlar.

Türkiyə Prezidenti Administrasiyası İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun bildirib ki, dronlar Antalya, Muğla, Van, İstanbul, Mardin, Hatay, Adıyaman – ümumilikdə 12 şəhərdə "tarix", "inanc", "su" və "sağlamlıq" kateqoriyaları üzrə Türkiyənin tarixi, təbiət və mədəniyyət məkanlarının görüntülərini çəkəcək.

Çəkilən videogörüntülər festivalın internet saytında (www.turkdronefest.com) yayımlanacaq. Ən yaxşı videomaterial internet üzərindən səsvermə ilə bəlli olacaq. Mükafatlandırma mərasimi 30 sentyabrda keçiriləcək.

**Mehparə SULTANOVA**
**Ankara**

# 100 min müsəlman yeniyetmənin təhsilinə yardım

Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyrin Qlobal Dəyişikliklər İnstitutu ilə Müsəlman Dünyası Liqası təhsil sahəsində tərəfdaşlıq layihəsi həyata keçirəcək. Liqanın baş katibi Məhəmməd bin Əbdülkərim Əl-İssa və Toni Bleyr layihə ilə bağlı saziş imzalayıblar.

Mərasimdə qeyd edilib ki, bütün dünyada yaşayan 1,8 milyard gəncin bir hissəsi yoxsulluq səbəbindən normal təhsil ala bilmir, müxtəlif təhlükəli cərəyanların təsiri altına düşür. Müsəlman Dünyası Liqası və Toni Bleyr İnstitutunun üç il ərzində həyata keçirəcəkləri təhsil proqramı çərçivəsində 18 ölkədən 13-17 yaş arası 100 min yeniyetməyə təhsil və peşə vərdişlərinə yiyələnmək üzrə yardım göstəriləcək, habelə bu prosesə bütün dünyadan 2400 müəllim cəlb olunacaq.

Təhsil proqramında müxtəlif dinlər və mədəniyyətlər arasında geniş dialoq yaradılmasına da diqqət göstəriləcək. Tədris proseslərində müsəlman gənclərin digər dinlərin mənsubu olan həmyaşıdları ilə mütəmadi ünsiyyət qurması təşkil olunacaq.

# Çox yeyin – arıqlayın...

İngiltərəli diyetoloq Tamara Uillner hesab edir ki, qidalanmada heç bir məhdudiyyət olmadan da arıqlamaq mümkündür.

"Daily Mail" nəşri mütəxəssisin "yeməyin tərkibi onun kaloriliyindən daha vacibdir" – sözlərini yada salmaqla, diyetoloqun fikrini əsaslandıran qənaətini xatırladır: "500 kilokalori şirniyyat və peçenye ilə 500 kilokalori toyuq və avokado arasındakı fərq ancaq görünüşdə ola bilər. Eyni kalorili məzmuna sahib olsalar da, toyuq və avokado bizə daha çox vitamin, mineral və lif verəcək".

Uillner daha çox yeməklə arıqlamağın bir yolu olduğuna inanır. Bu, aşağı kalorili dietli qidaların daha çox kalorili olmasına baxmayaraq, daha sağlam alternativlərlə əvəz edilməsini tələb edir. Ekspert fikrini əsaslandırmaq üçün nümunələr göstərir: "Az yağlı (280 kilokalori) tort yerinə yarım avokado (161 kilokalori) yemək daha yaxşıdır və yaxud bir qaşıq qatıqla (410 kilokalori), yağsız südlü qəhvə və süni dadlandırıcı (40 kilokalori) əvəzinə adi südlü qəhvə (100 kilokalori) və şəkərsiz bir stəkan kola yerinə (0 kilokalori) bir stəkan süd (110 kilokalori) içmək".

# Bir milyarda yaxın uşağın həyatı risk altındadır

## UNİCEF həyəcan təbili çalır

BMT-nin Uşaq Fondunun (UNİCEF) icraçı direktoru Henrietta Fore dünyada baş verən yanğınlar, sellər və quraqlıq nəticəsində bir milyarda yaxın uşağın həyatının risk altında olduğunu bildirib.

Hazırkı mənzərəni "ağlasığmaz dərəcədə qorxunc" adlandıran təşkilatın rəhbəri UNİCEF-in son hesabatının bütün reallıqları göz önünə sərdiyini deyib. Belə ki, dünyada 2,2 milyard uşağın yarısı iqlim dəyişikliyinin ağır fəsadları ilə üz-üzə qalıb. Hindistan, Nigeriya, Filippin və Afrikanın Səhra bölgəsində isə azyaşlılar iqlim dəyişməsi və ekoloji fəlakətlə yanaşı, həm də ifrat yoxsulluq, içməli su qıtlığı, səhiyyə və təhsil problemlərindən əziyyət çəkirlər.



UNİCEF-in hesabatında dünyanın 33 ölkəsində uşaqların taleyi ilə bağlı narahatlıq ifadə olunub. Bu ölkələrin əksəriyyəti Afrika, Latın Amerikası və Asiyada yerləşir. Hesabat BMT-nin Baş Assambleyasına təqdim edilib.

# "Everli qardaşları"nın ikincisi də vəfat edib

ABŞ-ın məşhur kauntri-rok ifaçısı Don Everli 84 yaşında Neşvildəki evində vəfat edib.

Rok musiqisinin öncüllərindən biri sayılan "Everli qardaşları" duetindən Fil Everli 2014-cü ildə dünyasını dəyişmişdi. Qardaşların dueti ötən əsrin 50-ci illərində yaranmışdı.

"Rolling Stone" jurnalı tez-tez "Everli qardaşları" duetini "Rokun ən vacib dueti" kimi öz səhifələrində qeyd edirdi. "Everli qardaşları" dueti "Bye Bye Love", "All I Have To Do İs Dream" və "Wake Up Little Susie" mahnıları ilə şöhrət qazanıb. Qardaşların harmonik ifası musiqi tarixində "The Beatles", "The Beach Boys" və "The Byrds" kimi böyük adlara təsir edib.

# Üzən yaşıl ada

"Gələcəyin şəhərləri" adlandırılan üzən şəhərlərin yaradılması ideyası memarların layihələrində daha geniş yer almaqdadır. Bu baxımdan növbəti belə ideyalardan biri də "Blue Estate" layihəsidir. Layihənin Karib dənizinin sularında, məşhur kurortlar – Mayami və Baham arasında həyata keçirilməsi planlaşdırılır.

Fantastik layihənin yaradıcıları planetin ən yaşıl süni adasında cənnət həyatını yaratmağa nail olublar.

Beton modullardan yaradılan və 15 min insanın yaşaması üçün nəzərdə tutulan adanın sahəsi 1,5 kvadratkilometrdir.



Süni adada bütün sakinlərin rahat yaşayışını təmin etmək üçün yalnız binaların deyil, həm də zəruri müəssisələrin, alış-veriş və əyləncə mərkəzlərinin və istirahət yerlərinin tikilməsi planlaşdırılır.

İlin 340 gününün günəşli olacağı adanın tikintisinin 2022-ci ildə başlanması nəzərdə tutulub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1578

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.